# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

# SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 26 (1508) ❖ Cümə, 18 sentyabr 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




## Prezident İlham Əliyev "Qobustan" Günəş Elektrik Stansiyasının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da paytaxtın Qaradağ rayonunda 100 MVt gücündə "Qobustan" Günəş Elektrik Stansiyasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, energetika naziri Pərviz Şahbazov, Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Lu Mey, "Universal International Holdings Limited" şirkətinin baş icraçı direktoru Yi Nan dövlətimizin başçısını qarşıladılar.

Prezident İlham Əliyevə "Qobustan" Günəş Elektrik Stansiyası, "Universal Energy" şirkəti və onun Azərbaycandakı fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, Çinin Şanxay şəhərində yaradılmış şirkət yaşıl enerji və enerji saxlanc sistemləri üzrə həllər təqdim edir.

"Universal Energy" Çinlə yanaşı, Qazaxıstan və Özbəkistanda da bərpaolunan enerji layihələri həyata keçirir.

Nazirlər Kabinetinin 2023-cü ildə qəbul etdiyi qərarla Bakı şəhərinin Qaradağ rayonunun Pirsaat qəsəbəsində 300,77 hektar torpaq sahəsi Günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyənləşdirilib.

Bu ərazi Günəş elektrik stansiyasının tikintisi məqsədilə hərraca çıxarılıb və Çinin "Universal International Holdings Limited" şirkəti 2024-cü ildə hərracın qalibi olub.

"Qobustan" Günəş Elektrik Stansiyası layihəsi Azərbaycanda hərrac vasitəsilə həyata keçirilən ilk, eyni zamanda, "Universal Energy" şirkətinin ölkəmizdə icra etdiyi birinci layihədir.

Stansiyada Günəş panelləri ilə yanaşı, sahə invertorları və transformatorlar quraşdırılıb, kabelləşdirmə işləri tam yerinə yetirilib.

"Qobustan" Günəş Elektrik Stansiyasının istismara verilməsindən sonra hər il təxminən 200 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 45 milyon kubmetr təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 97 min ton azaltmağa imkan verəcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən enerji siyasətinin prioritet istiqamətlərindən biri də bərpaolunan enerji mənbələrinin geniş tətbiqidir.

Azərbaycanda yaşıl enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. İqtisadi potensial 27 QVt, o cümlədən külək enerjisi üzrə 3 QVt, Günəş enerjisi üzrə 23 QVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı isə 520 MVt həcmində qiymətləndirilir. "Qobustan" Günəş Elektrik Stansiyasının istismara verilməsi ilə ölkəmizdə bərpaolunan enerji mənbələrinin ümumi gücü 2170 MVt, stansiyaların sayı isə 85 olacaq. Onların da 65-i su elektrik stansiyası (1443,5 MVt), 6-sı külək elektrik stansiyası (306,5 MVt), 10-u Günəş elektrik stansiyası (378,2 MVt), 3-ü hibrid elektrik stansiyası (7,3 MVt), 1-i isə BİO elektrik stansiyasıdır (37 MVt). Bərpaolunan enerji mənbələri ölkəmizin ümumi enerji gücünün təxminən 21,5 faizini təşkil edir. 2027-ci ilin sonunadək təxminən 1,5 QVt gücündə bərpaolunan enerji layihələrinin reallaşdırılması nəzərdə tutulur. Yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən bu layihələr ölkəmizin elektrik enerjisi ilə təminatı məsələsinə töhfə verməklə yanaşı, təbii qaza qənaət etməyə və atmosferə atılan karbon emissiyalarını xeyli azaltmağa şərait yaradır.

## Nobel mükafatı laureatı Əziz Səncər Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb

**Kimya üzrə Nobel mükafatı laureatı, dünya şöhrətli alim, həkim, akademik Əziz Səncər Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb.**

Bu barədə Diaspora ilə İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Məktubda Əziz Səncər "Şöhrət" ordeni ilə təltif olunmasını həyatının ən böyük qürurverici və sevindirici hadisələrindən biri kimi qiymətləndirib. O, göstərilən yüksək etimada görə dövlət başçısına dərin minnətdarlığını ifadə edib.

Əziz Səncər vurğulayıb ki, Azərbaycana olan sevgisi daim səmimi hisslərə əsaslanıb və heç vaxt hər hansı qarşılıq gözləntisi olmayıb. Azərbaycanın onun qəlbində hər zaman Türkiyə qədər doğma Vətən kimi xüsusi yer tutduğunu bildirib. Alim "Şöhrət" ordenini yalnız elmi fəaliyyətinə verilən yüksək qiymətin ifadəsi kimi deyil, eyni zamanda, "Bir millət, iki dövlət" məfkurəsinə söykənən qardaşlığın rəmzi kimi böyük qürurla daşıyacağını qeyd edib.

Xatırladaq ki, Prezident İlham Əliyevin 7 sentyabr 2026-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının beynəlxalq elmi və humanitar əməkdaşlığının möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Əziz Səncər "Şöhrət" ordeni ilə təltif olunub.

# Yaşıl zəka: iqlim dəyişmələrindən sosial-iqtisadi proseslərədək

## *AMEA-da elmi konfrans*







**Sentyabrın 10-da Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində "Yaşıl zəka: iqlim dəyişmələrindən sosial-iqtisadi proseslərədək" mövzusunda elmi konfrans keçirilib.**

Tədbiri giriş nitqi ilə açan **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** konfransın iqlim gündəliyində müəyyənləşdirilən prioritetlərin elmi müstəvidə nəzərdən keçirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O, COP29-dan sonra dünyada alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, "yaşıl" iqtisadiyyata keçidin sürətləndirilməsi istiqamətində strateji addımların atıldığını bildirib. Qeyd edib ki, COP29 "yaşıl enerji", "yaşıl energetika" və "yaşıl iqtisadiyyat" kimi anlayışların qlobal elmi və siyasi gündəlikdə daha geniş yer tutmasına, bu istiqamətdə yeni yanaşmaların formalaşmasına mühüm təkan verib.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin iqlim dəyişmələri ilə mübarizədə və "yaşıl" inkişaf gündəliyində fəal mövqeyini daha da gücləndirib. "Yaşıl dünya"nın qurulması və sağlam ətraf mühitin formalaşdırılması COP29-un əsas prioritetləri sırasında yer alıb.

AMEA prezidenti qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan qlobal iqlim proseslərində fəal rol oynayan ölkələrdən biri kimi mövqeyini möhkəmləndirib. O, Bakı İqlim Fəaliyyəti Həftəsinin keçirilməsini də ölkəmizin bu istiqamətdə qazandığı beynəlxalq nüfuzun və COP29-dan sonra formalaşmış yeni mərhələnin mühüm göstəricilərindən biri kimi dəyərləndirib.

Hazırda Azərbaycanda keçirilən İqlim Fəaliyyəti Həftəsində AMEA-nın geniş tərkibdə iştirak etdiyini söyləyən akademik İsa Həbibbəyli bildirib ki, dünyanın müxtəlif ölkələrindən iqlim məsələləri ilə məşğul olan dövlət qurumlarının, beynəlxalq təşkilatların, ictimai birliklərin və elmi-tədqiqat müəssisələrinin nümayəndələri Bakıda qlobal iqlim gündəliyinin aktual məsələlərini müzakirə edirlər. Bu kimi genişmiqyaslı tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq iqlim proseslərində artan rolunun göstəricisidir.

AMEA prezidenti "yaşıl zəka" anlayışının mahiyyətinə də toxunaraq bunun, əslində, "yaşıl elmi təfəkkür" ifadəsi ilə xarakterizə oluna biləcəyini deyib. Qeyd edib ki, "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində AMEA-da "Yaşıl zəka: iqlim dəyişmələrindən sosial-iqtisadi proseslərədək" mövzusunda elmi konfransın keçirilməsi Azərbaycan elminin iqlim gündəliyinə mühüm töhfəsidir.

"İqlim dəyişmələri artıq yalnız ekoloji məsələ deyil, həm də iqtisadi, sosial, texnoloji və humanitar inkişafla birbaşa bağlı olan kompleks problemdir", - deyən akademik İsa Həbibbəyli vurğulayıb ki, bu baxımdan elmin qarşısında dayanan əsas vəzifələrdən biri iqlim dəyişmələrinin sosial-iqtisadi proseslərə təsirlərini araşdırmaq, mövcud çağırışlara elmi əsaslandırılmış həll yolları təklif etməkdir.

AMEA rəhbəri bildirib ki, konfransda təqdim olunacaq məruzələrdə iqtisadi inkişafa və sosial rifaha töhfə verə biləcək, elmi cəhətdən əsaslandırılmış real təkliflərin irəli sürülməsi gözlənilir. O, bu kimi elmi müzakirələrin "Bakı İqlim Fəaliyyəti Həftəsi"nin məqsədlərinə elmi töhfə verməklə yanaşı, həm də Azərbaycan alimlərinin iqlim dəyişmələri ilə bağlı qarşıda duran vəzifələri daha aydın şəkildə müəyyənləşdirməsinə imkan yaratdığını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli çıxışının sonunda Azərbaycanın dünyanın aparıcı iqlimşünaslıq və iqlim araşdırmaları mərkəzlərindən birinə çevrilməsində alimlərin üzərinə mühüm məsuliyyət düşdüyünü vurğulayıb.

Sonra **Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev** çıxış edərək iqlim dəyişmələrinin təbii fəlakətlərin, sel və güclü yağıntıların, meşə yanğınlarının, su qıtlığının və digər risklərin artmasına səbəb olduğunu söyləyib. O, bu proseslərin səbəb və nəticələrinin obyektiv araşdırılması, müxtəlif elmi yanaşmaların müqayisəli təhlili və iqlim siyasətinin elmi əsaslara söykənməsinin vacibliyini qeyd edib. Həmçinin müasir iqlim dəyişmələrinin təsirlərinin öyrənilməsi üçün yeni texnologiyalardan, müasir laboratoriyalardan və etibarlı elmi məlumatlardan istifadəyə, eləcə də bu sahəyə investisiyaların artırılmasına ehtiyac duyulduğunu diqqətə çatdırıb.

Muxtar Babayev qeyd edib ki, bərpaolunan enerjiyə investisiyaların sürətlə artması artıq yalnız ekoloji deyil, həm də iqtisadi reallıqdır. 2025-ci ildə alternativ enerjiyə qoyulan qlobal investisiyaların 2,2 trilyon dollara çatdığını bildirən COP29 prezidenti enerji və su təhlükəsizliyinin iqlim dəyişmələri fonunda əsas çağırışlardan birinə çevrildiyini vurğulayıb.

Bildirib ki, Azərbaycan yaşıl enerji zonalarının və yaşıl dəhlizlərin inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. Onun sözlərinə görə, enerji resurslarından istifadənin ətraf mühitə təsirinin minimuma endirilməsi, enerji və su təhlükəsizliyinin gücləndirilməsi də qarşıda duran mühüm vəzifələrdəndir.

Prezidentin iqlim məsələləri üzrə nümayəndəsi çıxışının sonunda konfransın mövcud elmi tədqiqatların müzakirəsi ilə yanaşı, gələcək araşdırmalar üçün yeni istiqamətlərin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətli olduğunu qeyd edib.

**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov** iqtisadi inkişafla təbiətin qorunması arasında balansın yaradılmasının əsas prioritetlərdən biri olduğunu bildirib, ekoloji risklərin qarşısının alınmasında elmi araşdırmaların və alimlərin rəyinin nəzərə alınmasının vacibliyini vurğulayıb.

Sadiq Qurbanov iqlim dəyişikliklərində antropogen amillərin mühüm rol oynadığını, enerji resurslarından həddindən artıq istifadənin və ətraf mühitin çirkləndirilməsinin təbii balansı pozduğunu söyləyib. O, bu proseslərin quraqlıq, sel və digər iqlim fəsadlarının artmasına təsir göstərdiyini nəzərə çatdırıb.

Komitə sədri artan enerji tələbatı fonunda nüvə enerjisinin və digər alternativ enerji mənbələrinin əhəmiyyətinə diqqət çəkib. Həmçinin Azərbaycanın enerji potensialından səmərəli istifadə etməklə yanaşı, yeni enerji imkanlarının da araşdırılmasının vacibliyini bildirib.

O, Xəzər dənizinin səviyyəsinin aşağı düşməsinin yaratdığı ekoloji nəticələrin daha dərindən araşdırılmasına ehtiyac olduğunu qeyd edərək alimləri bu istiqamətdə tədqiqatlar aparmasının mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov** isə çıxışında Azərbaycanda davamlı inkişaf, inklüziv cəmiyyət və ekoloji sivilizasiya istiqamətində formalaşmış təcrübədən danışıb. Alim Azərbaycanda davamlı inkişaf və insan inkişafı məsələlərinin hələ 2000-ci ildə Ulu Öndər Heydər Əliyevin təsdiq etdiyi Təhsil Strategiyasında öz əksini tapdığını, 2005-ci ildən etibarən isə orta məktəblərdə "İnsan və cəmiyyət" fənninin tədrisində müvafiq məsələlərə yer ayrıldığını diqqətə çatdırıb. Akademik Urxan Ələkbərov ekoloji sivilizasiya, davamlı inkişaf və ətraf mühit mövzularında elmi araşdırmaların uzun müddətdir aparıldığını və bu istiqamətdə nəşrlərin hazırlandığını qeyd edib.

Rektor dünyada meşələrin qırılması və ətraf mühitin qorunması ilə bağlı problemlərə də toxunaraq, davamlı inkişafın elmi yanaşma və səmərəli idarəçilik tələb etdiyini vurğulayıb. Onun sözlərinə görə, Çində kənd təsərrüfatı üçün az yararlı ərazilərin meşələrə çevrilməsi istiqamətində həyata keçirilən proqramlar bu baxımdan nümunədir. Azərbaycanda da ekoloji məsələlərin davamlı inkişaf prinsipləri əsasında diqqətdə saxlanılması vacibdir.

Akademik Urxan Ələkbərov Azərbaycanda dövlət idarəçiliyində yeni texnologiyaların tətbiqinin bu yanaşmanın tərkib hissəsi olduğunu bildirib. O, həmçinin yaşıl və bərpa olunan enerjiyə keçidin də uzunmüddətli siyasətin nəticəsi olduğunu vurğulayıb. Bildirib ki, 2004-2022-ci illərdə bərpa olunan enerji sahəsində 17 fərman və sərəncam qəbul edilib, sonrakı mərhələdə isə yaşıl enerjiyə keçidi tənzimləyən qanunvericilik bazası formalaşdırılıb.

Rektor çıxışının sonunda yaşıl təfəkkürə və ekoloji sivilizasiyaya artan marağın elmlə idarəçiliyin vəhdətinə ehtiyacın güclənməsi ilə bağlı olduğunu qeyd edərək, bu baxımdan alimlərin qarşısında mühüm vəzifələrin dayandığını vurğulayıb.

Elmi konfransda akademik Urxan Ələkbərov elmin inkişafına verdiyi töhfələrə görə "AMEA-nın Yusif Məmmədəliyev doş nişanı" ilə təltif edilib.

Sonra videoçarx nümayiş olunub.

Daha sonra **AMEA-nın vitse-prezidenti, AR ETN Molekulyar Biologiya İnstitutunun direktoru v.i.e., akademik İradə Hüseynova** "Qlobal iqlim dəyişiklikləri və yaşıl zəka: elm və innovasiyalar kontekstində dayanıqlı gələcək" mövzusunda məruzə ilə çıxış edib. Akademik İradə Hüseynova iqlim dəyişmələrinin artıq həyatın müxtəlif sahələrinə təsir edən qaçılmaz reallığa çevrildiyini, su ehtiyatlarının azalması, quraqlıq, temperatur dəyişiklikləri, torpaqların deqradasiyası və biomüxtəlifliyə təzyiqlərin mühüm ekoloji çağırışlar yaratdığını bildirib.

O, biomüxtəlifliyin iqlim dəyişmələrinə qarşı mübarizədə mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, müasir biologiyanın imkanları iqlim stresinin canlı orqanizmlərə təsirini molekulyar və genetik səviyyədə öyrənməyə, əldə olunan nəticələrdən iqlimədavamlı kənd təsərrüfatının və genetik ehtiyatların qorunmasının elmi əsaslarının formalaşdırılmasına imkan verir.

Vitse-prezident müasir texnologiyaların, o cümlədən genomiks, molekulyar biomonitorinq, rəqəmsal texnologiyalar və süni intellekt əsaslı məlumat analitikasının biomüxtəlifliyin öyrənilməsi və iqlim dəyişmələrinə adaptasiya strategiyalarının hazırlanmasında əhəmiyyətini diqqətə çatdırıb. Azərbaycanın zəngin biomüxtəlifliyinin bu istiqamətdə geniş elmi tədqiqat imkanları yaratdığını qeyd edib.

Akademik İradə Hüseynova "yaşıl zəka"nı elmi bilik, innovasiya, rəqəmsal texnologiyalar, bioloji resursların qorunması və təbiətlə münasibətdə yeni düşüncə modelinin vəhdəti kimi xarakterizə edib. O, süni intellekt və böyük verilənlərin tətbiqi ilə müxtəlif elmi və ekoloji məlumatların inteqrasiyasına əsaslanan yeni tədqiqat imkanlarının yarandığını bildirib.

Məruzəçi iqlim dəyişmələrinin ərzaq və su təhlükəsizliyi, əhalinin sağlamlığı, enerji təhlükəsizliyi və regionların inkişafı kimi sosial-iqtisadi proseslərlə sıx bağlı olduğunu vurğulayıb. Bildirib ki, bu qlobal çağırışlara cavab vermək üçün təbiət, həyat, sosial və humanitar elmlərin əməkdaşlığı əsasında multidissiplinar yanaşmaların inkişaf etdirilməsi vacibdir.

AMEA-nın vitse-prezidenti Azərbaycanın gələcək iqlim şəraitində dayanıqlı inkişaf modelinin formalaşdırılmasının zəruriliyini qeyd edib. Bu modelin biomüxtəlifliyin qorunması, iqlimədavamlı kənd təsərrüfatı, yaşıl enerji, biotexnologiyalar və rəqəmsal texnologiyalarla yanaşı, elmi biliklərin qərarqəbuletmə proseslərinə inteqrasiyasını da əhatə etməli olduğunu bildirib.

Tədbirdə, həmçinin **Bakı Dövlət Universitetinin kafedra müdiri AMEA-nın müxbir üzvü Elşad Qurbanov** "Azərbaycanın florası və bitkiçiliyinin müxtəlifliyinə iqlim dəyişikliklərinin təsiri və onların mühafizəsi", **Molekulyar Biologiya İnstitutunun laboratoriya müdiri AMEA-nın müxbir üzvü Pənah Muradov** "Dəyişən ekoloji mühit və mikroorqanizmlər: davamlı inkişaf üçün yeni imkanlar", **AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru professor İlham Məmmədzadə** "Yaşıl zəka, süni intellekt və şüur fəlsəfəsi", **AMEA Rəyasət Heyəti Aparatının şöbə müdiri biologiya elmləri doktoru, dosent Tubuxanım Qasımzadə** "Yaşıl intellekt: elmin fənlərarası populyarlaşdırılmasının yeni drayveri", **Folklor İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin Qaliboğlu** "Azərbaycan folklorunda təbiət kultları: mifoloji təfəkkür və ekofolklorik yaddaş kontekstində", **Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyinin rəhbəri Elşad Əsgərov** "Azərbaycanın təbiəti və fauna müxtəlifliyi: müasir ekoloji şəraitdə mühafizə və davamlı inkişaf", eləcə də **biologiya üzrə fəlsəfə doktoru, dosent Sadıq Qarayev** "İqlim dəyişikliklərinə daha həsas olan relikt, nadir və endem bitkilərin monitorinqi və mühafizəsi" mövzusunda məruzələrlə çıxış ediblər.

# AMEA-da "Tağıyev" filminə baxış və "Azərbaycan geyim mədəniyyəti. Tarixi irsin bədii interpretasiyası" adlı fərdi sərginin açılış mərasimi



**AMEA Rəyasət Heyətində dördseriyalı "Tağıyev" bədii-tarixi filminə baxış və geyim və kino rəssamı Vüsal Rəhimin "Azərbaycan geyim mədəniyyəti. Tarixi irsin bədii interpretasiyası" adlı fərdi sərgisinin açılış mərasimi keçirilib.**

Tədbirdə çıxış edən **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** Azərbaycanda kino sənətinin bir əsrdən artıq inkişaf yolu keçdiyini, müxtəlif tarixi mərhələlər və çətinliklərlə üzləşdiyini bildirib. O, müstəqillik dövründə Azərbaycan kinosunun yeni mərhələyə qədəm qoyduğunu, bu istiqamətdə həyata keçirilən mühüm layihələrin ölkənin mədəni həyatına əhəmiyyətli töhfə verdiyini vurğulayıb.

AMEA rəhbəri "Tağıyev" filmini bu kimi böyük layihələrdən biri kimi səciyyələndirərək bildirib ki, ekran əsəri Azərbaycan tarixində önəmli rol oynamış böyük xeyriyyəçi və mesenat Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinin, tarixi irsinin yeni nəslə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Uzun illər sovet ideologiyasının təsiri ilə tarixi şəxsiyyətlərin yaddaşdan silinməsinə və ya fəaliyyətlərinin təhrif olunmasına cəhdlər göstərilib. "Tağıyev" filmi isə müstəqillik dövründə tarixi şəxsiyyətlərə qayıdışın, onların irsinin yenidən dəyərləndirilməsinin mühüm nümunəsidir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, film yalnız Hacı Zeynalabdin Tağıyevin şəxsiyyətini deyil, onun yaşadığı dövrün ictimai-mədəni mənzərəsini də əks etdirir. Ekran əsərində həmin dövrün hadisələri, sosial münasibətləri, müxtəlif təbəqələrin həyatı və tarixi mühit geniş şəkildə təqdim olunur. Bu baxımdan film Azərbaycanın həmin tarixi mərhələsini daha dolğun təsəvvür etməyə imkan verir.

Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən lentə alınmış "Tağıyev" filminin ərsəyə gəlməsində Bakı Media Mərkəzinin, xüsusilə layihənin rəhbəri və prodüseri, Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevanın əməyini yüksək dəyərləndirən akademik İsa Həbibbəyli layihənin Azərbaycan mədəniyyəti və kinosu ilə yanaşı, ictimai fikir baxımından da əhəmiyyətli hadisə olduğunu vurğulayıb.

Akademik İsa Həbibbəyli filmin diqqətçəkən xüsusiyyətlərindən birinin dövrün koloritinin, o cümlədən geyim mədəniyyətinin dəqiq və inandırıcı şəkildə təqdim olunması olduğunu bildirib. Qeyd edib ki, filmdə istifadə olunan geyimlər vasitəsilə XX əsrin əvvəllərində Azərbaycanın sosial mühiti, müxtəlif təbəqələrin həyat tərzi və estetik zövqü barədə təsəvvür yaratmaq mümkündür.



AMEA prezidenti akademik İsa Həbibbəyli "Tağıyev" filmi kimi çətin və möhtəşəm kino layihəsinin uğurlu həllinə və xalqa çatdırılmasında göstərilən dəstəyə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevaya kollektivin minnətdarlığını çatdırıb.

Sonra **Bakı Media Mərkəzinin icraçı direktoru Orman Əliyev** çıxış edərək Azərbaycanın görkəmli sahibkarı və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunan "Tağıyev" filminin böyük və çoxseriyalı layihə olduğunu bildirib. O, filmin çəkilişlərinin müxtəlif məkanlarla yanaşı, AMEA-da da aparıldığını diqqətə çatdırıb. Qeyd edib ki, film üzərində gərgin əmək sərf olunub, çəkiliş materiallarından 9 saata yaxın hissə seçilərək ekranlaşdırılıb.

Orman Əliyev layihənin cəmiyyət tərəfindən böyük rəğbətlə qarşılandığını, filmin kinoteatrlarda nümayiş etdirildiyini və ən çox izlənilən yerli filmlər sırasında yer aldığını diqqətə çatdırıb.

"Tağıyev" filmi milli dəyərlərin, xeyriyyəçilik ənənələrinin və Azərbaycanın tarixi şəxsiyyətlərinin irsinin təbliği baxımından mühüm əhəmiyyət daşıyır", - deyə bildirən icraçı direktor vurğulayıb ki, layihənin müxtəlif bölümlərində Hacı Zeynalabdin Tağıyevin neft fəaliyyəti, ictimai həyatı və maarifçilik təşəbbüsləri, o cümlədən 1901-ci ildə Bakıda ilk müsəlman qız məktəbinin açılması uğrunda mübarizəsi əks etdirilir.

Sonra dörd seriyadan ibarət olan "Tağıyev" filminin bütün hissələrini özündə əks etdirən müxtəlif parçalar videoçarx şəklində tədbir iştirakçılarına təqdim olunub.

Daha sonra **"Tağıyev" filminin rejissoru Zaur Qasımov** çıxış edərək ekran əsərinin ərsəyə gəlməsi prosesi və yaradıcı heyətin fəaliyyəti barədə məlumat verib. Bildirib ki, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə həsr olunan film Heydər Əliyev Fondunun, Mədəniyyət Nazirliyinin və Kino Agentliyinin dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən lentə alınıb. Rejissor filmdə peşəkar yaradıcı heyətin və geniş aktyor kollektivinin böyük əməyi olduğunu qeyd edib, layihəyə göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Tədbirdə **AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun elmi katibi tarix üzrə fəlsəfə doktoru, dosent Bəhmən Əliyev** "Azərbaycan milli geyimləri: XIX əsrin sonu - XX əsrin əvvəlləri" və **AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Qasəbova** "Azərbaycan milli geyimlərində folklor yaddaşı və milli kimlik" mövzularında məruzələri təqdim ediblər. Çıxış edənlər sərginin Azərbaycan geyim mədəniyyətinin tarixi və bədii xüsusiyyətlərini dolğun şəkildə əks etdirdiyini, cəmiyyətin müxtəlif sosial təbəqələrinin geyim üslubunu və məişət xüsusiyyətlərini incə detallarla təqdim etdiyini vurğulayıblar. Qeyd olunub ki, əsərlərdə ənənəvi toxuculuq, parça, naxış və bəzək elementlərindən istifadə milli geyim mədəniyyətinin zənginliyini və tarixi irsin müasir bədii interpretasiyasını nümayiş etdirir.

Sonra **"Tağıyev" filminin geyim və kino rəssamı Vüsal Rəhim** çıxış edərək fərdi sərgisinin təşkilinə görə Bakı Media Mərkəzinin və Milli Elmlər Akademiyasının rəhbərliyinə minnətdarlığını bildirib, tədbirin Azərbaycan mədəni irsinin təbliği baxımından önəmini vurğulayıb.

Sonda Vüsal Rəhimin "Azərbaycan geyim mədəniyyəti. Tarixi irsin bədii interpretasiyası" adlı fərdi sərgisinə baxış keçirilib.

# Akademik İsa Həbibbəylinin monoqrafiyası Britaniya Kitabxanasına təqdim edilib




**AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin 2021-ci ildə 10 dildə çap olunmuş "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" kitabının nüsxəsi rəsmi olaraq Londonda yerləşən Britaniya Kitabxanasının kolleksiyasına təqdim olunub.**

Bu barədə London Kral İncəsənət Cəmiyyətinin (RSA) üzvü Nil Uotson tərəfindən Azərbaycan Milli Elmlər Akademiyasına göndərilən məktubda bildirilib.

**Məktubda deyilir:**

***"Azərbaycan irsinin Böyük Britaniyada təbliği: Akademik İsa Həbibbəylinin Britaniya Kitabxanasına təqdim olunmuş Nizami Gəncəvi əsəri***

*Böyük Britaniya ilə Azərbaycan arasında beynəlxalq elmi əlaqələrdə mühüm və tarixi bir mərhələni bölüşməkdən şərəf duyuram.*

*Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəylinin böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin (1141-1209) həyatına, fəlsəfi irsinə və ədəbi irsinə həsr olunmuş, mühüm çoxdilli "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" əsərinin nüsxəsi rəsmi olaraq Londonda yerləşən Britaniya Kitabxanasının kolleksiyasına təqdim olunub.*

*Bu təşəbbüs Avropa və beynəlxalq akademik ictimaiyyətə Nizami irsinin ən yüksək elmi səviyyədə hazırlanmış ətraflı illüstrasiyalı tədqiqatına birbaşa çıxış imkanı yaradır.*

*Akademik İsa Həbibbəyli görkəmli ədəbiyyatşünas alim və Azərbaycan ədəbiyyatı tarixi, folkloru, eləcə də Şərq və Qərb maarifçiliyinə dair mövzuların tədqiqi sahəsində tanınmış mütəxəssisdir. Onun əzmlə apardığı tədqiqatlar fəlsəfi təfəkkürün və sosial-ədəbi cərəyanların təkamülünün, həmçinin bəşəriyyətin inkişafında həlledici rol oynayaraq regionun mədəni mənzərəsini formalaşdırmış əsas intellektual şəxsiyyətlərin dərindən təhlilinə həsr olunub.*

*AMEA-nın rəhbəri kimi akademik İsa Həbibbəyli akademik tədqiqatların beynəlxalq səviyyədə inkişafına əvəzsiz töhfə verir. Onun rəhbərliyi ilə AMEA Avropanın və dünyanın aparıcı elmi mərkəzləri ilə birgə təşəbbüslər həyata keçirərək, beynəlxalq tərəfdaşlıq əlaqələrini misli görünməmiş səviyyədə fəal şəkildə genişləndirir.*

*Akademik İsa Həbibbəylinin Nizami Gəncəvinin yaradıcılığına, eləcə də XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyinə dair genişmiqyaslı tədqiqatları müasir nizamişünaslıq və ədəbiyyatşünaslıq üçün yeni bir meyar müəyyənləşdirib. Bununla yanaşı, o, AMEA-nın ölkənin əsas intellektual mərkəzi kimi rolunu möhkəmləndirərək, qabaqcıl elmi məktəblərin inkişafına yorulmadan dəstək verib.*

*İsa Həbibbəylinin Nizami Gəncəviyə həsr olunmuş monoqrafiyasının Britaniya Kitabxanasına təqdim edilməsi, dünyanın ən böyük və ən məşhur kitabxanalarından birinin fonduna sadəcə bir kitabın əlavə edilməsindən daha artıq bir məna daşıyır. Bu, qlobal elmi müzakirələr çərçivəsində klassik Azərbaycan irsinin düzgün və dərindən dərk edilməsinə təkan verən mühüm akademik körpü rolunu oynayır. Humanizm, etika və müdrikliklə zəngin olan Nizami yaradıcılığı mədəniyyətləri birləşdirməkdə davam edir, aktuallığını qoruyub saxlayır və belə fundamental tədqiqatlar vasitəsilə Azərbaycan elmi ən yüksək beynəlxalq səviyyədə əks-səda doğurmaqda davam edir.*

*Nil Uotson,*
*Kral İncəsənət Cəmiyyətinin (RSA) üzvü,*
*London, Birləşmiş Krallıq".*

**P.S: Akademik İsa Həbibbəylinin 2021-ci ildə "Elm və təhsil" nəşriyyatında çap edilmiş "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" kitabında Azərbaycan, türk, rus, ingilis dillərində "Xəmsə" yaradıcısı haqqında monoqrafik tədqiqat, xin, polyak, bolqar, alman, ukrayna, gürcü dillərində məqalələr toplanmışdır.**

# Türkiyədən məktub



**Azərbaycan Milli Elmlər Akademiyasında Nobel mükafatı laureatı, professor Əziz Səncərin 80 illik yubileyi münasibətilə keçirilən yığıncağa görə Türkiyənin Mərmərə Qrupu Fondunun prezidenti Dr. Akkan Suver tərəfindən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə məktub göndərilib.**

**Məktubda deyilir:**

*"Hörmətli Prof. Dr. İsa Həbibbəyli*
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*
*Bakı - Azərbaycan*

*Əziz dostum,*

*Azərbaycan Prezidenti Zati-aliləri cənab İlham Əliyev tərəfindən Prof. Dr. Əziz Səncərin "Şöhrət" ordeni ilə təltif edilməsindən çox məmnun olduğumuzu ifadə edir və minnətdarlığımızı bildiririk.*

*Bu arada, Mərmərə Qrupu Fondundakı həmkarlarım adından, keçirdiyiniz Əziz Səncər Yığıncağına görə Sizə və hörmətli akademik həmkarlarınıza təşəkkürümüzü və təbriklərimizi çatdırmaq istəyirəm. Nobel mükafatı laureatı, professor Əziz Səncər Türkiyənin, Azərbaycanın və Türk dünyasının qürurudur.*

*Xatırladığınız kimi, Mərmərə Qrupu Fondunun 40 illik yubileyi münasibətilə 2025-ci ildə Prof. Dr. Əziz Səncərə HEYDƏR ƏLİYEV - TÜRK DÜNYASİ MÜKAFATI təqdim etmişik. Mükafatı bizim adımızdan Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov təqdim etmişdi.*

*Sizi bir daha təbrik edir və İstanbuldan sevgi və hörmətimizi bildiririk.*
*Hörmətlə,*
*Dr. Akkan Suver*
*Prezident"*

NOBEL MÜKAFATI LAUREATI ƏZİZ SƏNCƏR - 80

# Dünya elminin, türk dünyasının və Azərbaycanın Əziz Səncəri

**Beynəlxalq Nobel mükafatı laureatı adını almaq bu nüfuzlu mükafata layiq görülən görkəmli alimlə bərabər, onun ölkəsinə və xalqına da şöhrət qazandırır. Bu mənada Amerikanın Şimali Karolina Universitetində çalışan türk əsilli Əziz Səncərin 2015-ci ildə Nobel mükafatını alması ilk növbədə qardaş Türkiyə Cümhuriyyətinə şərəf və şan qazandırmışdır. Əziz Səncər özü də Nobel nitqində aldığı Nobel mükafatının onun doğma vətəni olan Türkiyəyə aid olduğunu bəyan edərək demişdir: "Məni mükafatlara aparan Atatürk və Türkiyə Cümhuriyyətinin elmdəki inqilabıdır. Beləliklə, bu mükafatın sahibi Türkiyə Cümhuriyyətini təmsil edən Atatürkün Anıtqəbir muzeyidir".**

Məlum olduğu kimi, Əziz Səncər Nobel mükafatı medalını və sertifikatını Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərindəki Mustafa Kamala Atatürk Anıtqəbir Kompleksindəki "Atatürk və Qurtuluş savaşı" muzeyinə təqdim etmişdir. Anıtqəbri ziyarət edən hər bir türk vətəndaşı həm də böyük iftixar hissi ilə Əziz Səncərin "Atatürk və Qurtuluş savaşı" muzeyində nümayiş etdirilən Nobel vəsiqələri ilə də tanış olur. Bu, Əziz Səncərin türk xalqı içərisindən yeni Nobel mükafatçılarının yetişməsi arzusuna xidmət edən düşündürücü və əhəmiyyətli addımının əks-sədasıdır.

Əziz Səncərin kimya elmi üzrə Nobel mükafatına layiq görülməsi türk dünyası üçün də əlamətdar hadisədir. Əziz Səncərin Nobel mükafatı bütün türk xalqlarının ortaq mükafatı hesab oluna bilər. Təəssüf ki, hələ ki, türk dünyasında Nobel mükafatına layiq görülən elm xadimləri çox deyildir. Və həm də Əziz Səncər Nobel mükafatı laureatı kimi mənsub olduğu Türkiyədə və Azərbaycanda, ümumən türk dünyasında elmin inkişaf etdirilməsini türk dövlətlərinin inkişafının əsas hərəkətverici qüvvəsi hesab edir. Təsadüfi deyildir ki, Nobel mükafatı laureatı, professor Əziz Səncər 3 iyun 2024-cü il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının Böyük Akt Zalında respublika ictimaiyyəti qarşısında "Türk dünyasının elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda etdiyi elmi məruzəsini türk xalqlarının elmi əlaqələrinin daha da genişləndirilməsi və bir çox hallarda vahid elmi platformadan çıxış edərək böyük elmi nailiyyətlərə nail olmaqla yeni mərhələ yaratmağın mümkünlüyünə həsr etmişdir. Görkəmli elm xadiminin fikrincə, Çin Xalq Respublikasının elmdə etdiyi inqilabi elmi nailiyyətlər bu ölkənin dünyanın lider dövlətlərindən birinə çevrilməsində xüsusi rol oynamışdır. Professor Əziz Səncərə görə ümumi ərazisi təxminən Çin Xalq Respublikasına yaxın olan və maddi sərvətləri o ölkədən çox olan türk coğrafiyasında elmi inteqrasiyanı gücləndirmək və genişləndirməklə, "ortaq elmi layihələrin birgə icrası ilə və əldə olunan elmi nəticələri beynəlxalq elmi bazalara daxil olan nüfuzlu jurnallarında çap etdirib yaymaqla" türk dünyasının dünya elmində mühüm yer tutması və ümumi elm-texnoloji inkişafa nail olması mümkündür. Türk dünyasında elmi inkişafının Əziz Səncər konsepsiyası türk xalqları elminin və ümumtürk coğrafiyasında elmlə inkişafın mühüm strateji əhəmiyyətə malik olan modelidir.

Nobel mükafatı laureatı, professor Əziz Səncər özü də türk dünyasında elmin inkişaf etdirilməsi proseslərində yaxından iştirak edir. O, Türkiyədə, Azərbaycanda və ümumtürk coğrafiyasının digər ölkələrindəki çıxışlarında da zəruri hesab etdiyi türk dünyasının birliyi amalının özünün ideali və uşaqlıq arzusu olduğunu açıq şəkildə diqqətə çatdırmışdır: "Türk dünyasının birliyini görmək istəyirəm. Bu, mənim uşaqlıqdan ən böyük arzum olub". Türk dünyasının birliyi və həmrəyliyinə töhfə vermək üçün dəfələrlə Türkiyə Cümhuriyyətində, üç dəfə Azərbaycanda və hərəsində bir dəfə olmaqla Özbəkistanda və Qazaxıstanda səfərlərdə olmuş, Elmlər Akademiyalarında və universitetlərdə alimlərlə və tələbələrlə görüşlər keçirərək ideallarını aşılamaq məqsədilə məruzələr oxumuş, çıxışlar etmiş, görüşlər keçirmiş, təkliflər irəli sürmüşdür. Şimali Karolina Universitetində təsis etdiyi və rəhbəri olduğu Aziz & Gwen Səncər Fondu və Səncər Mədəniyyət Mərkəzi də Nobel mükafatçısı Əziz Səncərin türk dünyasının həmrəyliyi ilə əlaqədar ali məqsədlərinin həyata keçirilməsinə uğurla xidmət edir.

Əziz Səncər 8 sentyabr 1946-cı ildə Türkiyə Cümhuriyyətinin Mardin vilayətinin Savur il mərkəzində anadan olmuşdur. Görkəmli alimin mənsub olduğu nəsil Orta Asiyadan Mardinə köçmüş oğuz türklərindəndir. XX əsrin ortalarına qədər Mardin vilayətində ərəb dilində danışıq geniş yer tutsa da, Əziz Səncər səkkiz uşaqdan ibarət olan ailəsində və məhəllə mühitində türkcə danışmağa üstünlük vermişdir. Bu cəhətdən o, türk folkloruna və xüsusən anasının dilindən eşitdiyi laylalara, bayatlara, el sözlərinə vurğun olduğunu daim nəzərə çatdırmışdır. Mardindəki lisə təhsili illərində türk dilini daha böyük həssaslıqla öyrənmiş və futbolçu kimi diqqəti cəlb etmişdir. Sonrakı dövrdə 1963-1969-cu illərdə İstanbul Universitetinin tibb fakültəsində ali təhsil aldığı illərdə həyatını tibb və biokimya elmlərinin dərindən öyrənilməsinə həsr etmişdir. Cəmi iki il Savur ilindəki sağlamlıq mərkəzində həkim kimi çalışan Əziz Səncər həmvətənlərinin sağlamlığına xidmət etməklə doğma diyara və taleyində haqqı-sayı olan insanlara mənəvi borcunu yerinə yetirmişdir. Bundan sonra o, Türkiyə Elm və Texnoloji Tədqiqat şurasının - TUBİTAK-ın dəstəyi ilə Amerikanın əvvəlcə Cons Hopkins Universitetində və Dallas Texas Universitetində təhsilini davam etdirərək, tibb və biokimya sahəsində biliklərini artırmışdır. Bunun ardınca Əziz Səncər Texas Universitetində görkəmli elm xadimi, professor Klaud Rupertin rəhbərlik etdiyi laboratoriyada biokimya ixtisası üzrə doktorantura təhsili almışdır. Burada o, professor Klaud Rupertin elmi rəhbərliyi ilə tibb və biologiya elminin ən aktual istiqaməti hesab edilən gen mühəndisliyi ixtisası sahəsində ciddi tədqiqatlar apararaq, mühüm elmi nəticələr əldə etmişdir. Belə ki, cavan tədqiqatçı Əziz Səncər özünəqədər məlum olan fotoliaz adlı geni klonlayaraq, onu gen mühəndisliyi vasitəsilə bakteriyalarda çoxaltmışdır. DNT tədqiqatlarında yeni olan bu elmi nəticə Əziz Səncəri Amerika elmi mühitində və tədricən beynəlxalq aləmdə yeni ixtiranın müəllifi kimi tanıtmışdır. Əziz Səncərin əldə etdiyi gen növü tərəfindən şifrələnmiş ferment elmi tədqiqatlarda və təcrübədə ultrabənövşəyi şüalar tərəfindən zədələnmiş DNT kodlarının bərpa edilməsində həlledici faktora çevrilmişdir. Deməli, Əziz Səncər biokimya elmi sahəsində ilk dəfə olaraq bakteriyalarda müəyyən olunmuş şifrələnmiş fermenti kəşf etmiş və onu laboratoriya sınaqlarından keçirərək təsdiqlənməsinə nail olmuşdur. Bundan sonra Əziz Səncər Amerikanın məşhur Yel Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirərək əldə etdiyi elmi nəticələrə görə dosent elmi adını almış və DNT kodlarının elmi cəhətdən "təmir edilməsi" sahəsindəki axtarışlarını daha da dərinləşdirmişdir. Bu mərhələdə o, fotoliaz fermenti ilə yanaşı, DNT kodlarının mikleopid parçalanmaları sahəsində də yeni elmi kəşflər etməyə nail olmuşdur. Bu zaman artıq Əziz Səncər yüksək elmi dairələrdə DNT kodlarının öyrənilməsinin fərqli metodologiyasını kəşf etmiş görkəmli alim kimi qəbul edilmişdi. Əlbəttə, belə mühüm elmi kəşflər onun elm adamı olaraq şöhrət qazanmasında mühüm rol oynamışdır.

Bununla belə, Əziz Səncər şöhrətin səfası ilə yanaşı, cəfasını da çəkməli olmuşdur. Dünya miqyaslı mühüm elmi kəşflərin müəllifi olmasına baxmayaraq, Əziz Səncərin elmi-pedaqoji fəaliyyətinin



üzvü surətdə bağlı olduğu Texas və Yel Universitetində qalıb işləməsi mümkün olmamışdır. Elmdə paxıllıq və qısqanclığın sərt üzü ilə rastlaşan Əziz Səncər artıq 1997-ci ildən etibarən fəaliyyətini Amerikanın ən ucqar ali məktəblərindən biri olan Şimali Karolina ştatındakı Kapell-Hill Universitetində davam etdirməkdədir. O, bu ali təhsil ocağında biokimya və biofizika üzrə mühazirələr oxumaqla yanaşı, mükəmməl laboratoriya qurmuş, elmi axtarışlarını daha da təkmilləşdirərək yeniləşdirmişdir. Əziz Səncər DNT kodlarının şifrələnməsi üzrə əldə etdiyi yeni biokimyəvi maddələri xərçəng xəstəliyinə tətbiq etməklə sağaldılması çox çətin və mürəkkəb olan bu xəstəliyin yeni müalicə üsullarını kəşf etmişdir. Beləliklə, Texas və Yel Universitetlərində başlanan elmi axtarışlar, hələ XX əsrin yetmişinci illərində başlanan və bir-birini tamamlayan elmi-tədqiqat işləri təxminən otuz ildən sonra, XXI əsrin əvvəllərində Şimali Karolina Universitetində tamamlanmışdır. Professor Əziz Səncərin dünyanın müxtəlif ölkələrində Beynəlxalq simpoziumlarda etdiyi məruzələr, təqdim olunan laborator analizləri təsvirləri onun tədqiqatlarının və elmi nəticələrinin yayılmasına şərait yaratmış, bu istedadlı və iradəli elm adamı haqqında ictimai elmi rəyi formalaşmışdır. Nəhayət, bütün bunlardan sonra Amerikanın Şimali Karolina Universitetinin professoru Əziz Səncər 2015-ci ildə xərçəng xəstəliyinin müalicə üsullarının müəyyən edilməsində bir-birini tamamlayan fərqli elmi nəticələr əldə etmiş Amerika alimi Pol Modriç və İsveçli alim Tomas Lindal ilə birlikdə Kimya üzrə Nobel mükafatına layiq görülmüşdür.

Qeyd etmək lazımdır ki, Əziz Səncər xərçəng xəstəliklərinin biokimyəvi üsullarla müalicəsi üzərində elmi axtarışlarını Nobel mükafatı aldıqdan sonra da davam etdirməkdədir. O, artıq 2025-ci ildə bu sahədə yeni elmi nəticələrə gəldiyini dünya elmi ictimaiyyətinə açıqlamışdır. Görkəmli türk alimi, professor Əziz Səncər qarşıdakı ən yaxın illərdə xərçəng xəstəliklərinin tam sağaldılmasına xidmət edən yeni müalicə üsullarını və dərman preparatlarını elan edəcəyinin anonsunu vermişdir. Bu, məşhur türk aliminin bəşəriyyət qarşısında ən böyük xidməti olacaqdır.

Ümumiyyətlə, professor Əziz Səncər dünyada qəbul edilən, beynəlxalq elmi nüfuza malik görkəmli türk alimidir. Son illərin statistikasına əsasən o, müxtəlif illərdə uğrunda çalışdığı və nəhayət, müvəffəqiyyətlə həll etdiyi elmi problemlərə həsr edilmiş 33 monoqrafiya və broşürün, 425 elmi məqalənin müəllifidir. Hazırda Əziz Səncər dünyanın ən mühüm elmi mərkəzlərdə və universitetlərdə beynəlxalq miqyaslı elmi tədbirlərdə məruzələrdə çıxış edir. Bu gün o, beynəlxalq elmi məclislərdə biokimya sahəsində dünya elmi adından söz demək səlahiyyətinə malik olan görkəmli elm xadimi kimi məşhurlaşmışdır.

Beynəlxalq tədbirlərdə Amerika Şimali Karolina Universitetinin professoru kimi çıxış edən Əziz Səncər hər yerdə və hər dəfə türk olduğunu qürurla bəyan edir. Hətta BBS kanalının milli mənsubiyyət baxımından "türk və ya yarı ərəb" sorğusuna Əziz Səncər "Mən türkəm, budur" - deyə qəti cavab vermişdir. O, məmləkəti Türkiyəni daim uca tutaraq "Nobel mükafatını, bütün elmi uğurlarını Türkiyədə sülh üçün verərdim" - qənaətdə olduğunu bəyan etmişdir. Türkiyə Cümhuriyyətində də Əziz Səncərə dövlət rəhbərliyi və xalq səviyyəsində, elmi ictimaiyyət arasında xüsusi ehtiram göstərilir. Professor Əziz Səncər 2006-cı ildə Türkiyə Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Qardaş ölkədə Anadolu liseyləri Əziz Səncərin adını daşıyır. O, 1997-ci ildə mühüm elmi xidmətlərinə görə Türkiyə Elm və Texnoloji Şurasının Elm mükafatı ilə təltif olunmuşdur. Görkəmli elm xadimi həm də Vəhbi Qoç mükafatı laureatıdır.

Nobel mükafatı laureatı, professor Əziz Səncərin həyatı və fəaliyyəti Azərbaycanla üzvü surətdə bağlıdır. Əziz Səncər doğma məmləkəti Türkiyə kimi Azərbaycanı da özünün Vətəni hesab edir. Bu haqda o, 28 may 2021-ci il tarixdə Azərbaycanda ilk dəfə keçirilən "Texnofest Azərbaycan" Aerokosmik və Texnologiya Festivalındakı çıxışı zamanı gənclərə müraciətində xüsusi olaraq fikirlərini aşağıdakı kimi ifadə etmişdir: "Əziz gənclər. Vətənimizi sevməkdən əsla vaz keçməyin. Vətənimizə, insanlarımıza fayda verməyən işlərin davamlı olmayacağını bilin Vətənimizin, - Vətənimiz dediyim zaman mən həm Türkiyə, həm də Azərbaycanı nəzərdə tuturam, onu da açıqlayım, - yüksəlməsi üçün lap çox çalışın İnadkar olun, məğlubiyyəti əsla qəbul etməyin".

Bundan başqa, Amerikanın Şimali Karolina Universitetində yaşayıb-işləyən Əziz Səncər 2021-ci ildə ölkəmizdə Nizami Gəncəvi adına Qızıl medalla təltif olunarkən bu medalın əsasnaməsinə uyğun olaraq müəyyən edilmiş "xarici ölkə vətəndaşı" sözlərini qəbul etməyərək, yalnız medalın vəsiqəsində "Azərbaycan alimi" sözləri yazıldıqdan sonra həmin mükafatın sahibi olduğunu bildirmişdir. Həmçinin professor Əziz Səncər Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyliyə 1 avqust 2023-cı il tarixdə göndərdiyi məktubda da "Hər kəsə məlumdur ki, mən Azərbaycanı öz vətənim hesab edirəm. Azərbaycan üçün əlimdən gələni yaparam" - sözlərini yazmaqla bir daha ölkəmizə və xalqımıza olan dərin bağlılığını və sevgisini ifadə etmişdir.

Nobel mükafatı laureatı Əziz Səncəri ilk dəfə Azərbaycana 2017-ci ildə İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov dəvət etmişdir. Əziz Səncər Azərbaycan Dövlət İqtisad Universitetində tələblərlə görüş zamanı Azərbaycana xüsusi rəğbət bəslədiyini ifadə etmiş, eyni zamanda, "türk dünyasının birliyini görmək istədiyini" və yeni nəslin öz ölkəsini sevməklə yanaşı, həm də türk dünyasına da xidmət etməsinin türk xalqlarından hər biri üçün zəruri olduğunu diqqətə çatdırmışdır. Bu görüş İqtisad Universiteti ilə Şimali Karolina Universiteti arasında əlaqələrin yaradılması üçün körpü funksiyasını yerinə yetirmişdir.

İqtisad Universitetinin Elmi şurası professor Əziz Səncəri dünya elminin inkişafındakı böyük xidmətlərinə və Azərbaycan elmi ictimaiyyəti ilə əlaqələrinə görə bu ali məktəbin - UNEC-in fəxri professoru seçmişdir. Bundan başqa, İqtisad Universitetindəki laboratoriyalardan birinə Nobel mükafatı laureatı, professor Əziz Səncərin adı verilmişdir. İqtisad Universitetinin dosenti, iqtisadiyyat üzrə fəlsəfə doktoru Elşən Bağırzadə doğma universitetlə, ümumiyyətlə Azərbaycanın elm və ali təhsil müəssisələri və eyni zamanda türk dünyası ilə professor Əziz Səncərin əlaqələrini qurmaq üçün şərəfli koordinatorluq missiyasını məsuliyyətlə yerinə yetirir.

Azərbaycan Respublikasında gedən ictimai-siyasi prosesləri diqqətlə və böyük maraqla izləyən professor Əziz Səncər ölkəmizin bütün uğurlarına ürəkdən sevinən və nailiyyətlərimizi beynəlxalq səviyyədə təbliğ edən böyük vətəndaş alimdir. O, Azərbaycanın ən ağır problemi olan Qarabağ məsələsini də diqqətlə izləmiş, bu istiqamətdə gedən proseslərə daim özünün obyektiv münasibətini bildirmiş, yaşayıb fəaliyyət göstərdiyi dairədə və beynəlxalq elmi ictimaiyyət arasında Azərbaycan həqiqətlərini, Qarabağ savaşının mahiyyətini təbliğ edib, çox sualları cavablandırmışdır. İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin Dəmir Yumruğu ilə qazanılan tarixi Zəfəri möhtəşəm qələbə kimi bayram hissi ilə qarşılayan Əziz Səncər bu hadisəni türk dünyasının ən böyük zəfərlərindən biri kimi qiymətləndirmişdir. Əziz Səncər bəyan etmişdir ki, "Mənə görə Azərbaycanın Qarabağ Zəfəri Atatürkün İstiqlal savaşından sonra Türk dünyasının ən böyük Zəfəridir".

Müşahidələr və Əziz Səncərin qeydləri göstərir ki, o, Qarabağ hadisələrini uzun illər ərzində böyük həssaslıqla araşdırıb öyrənərək Azərbaycan xalqının hiss və həyəcanlarına, iztirablarına şərik olmuş, sevincimizi ürəkdən bölüşmüşdür. Professor Əziz Səncərin 4 iyun 2024-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən mətbuat konfransında verdiyi müsahibədəki aşağıdakı sözlər onun Qarabağ hadisələrinin bütün mərhələlərinin, kədərli-sevincli hadisələrinin içində olduğunu əyani şəkildə göstərir: "Azərbaycana ilk gəldiyim zaman Qarabağ işğal altında idi. Bütün danışıqlarımızda bu məsələ hər kəsin düşüncəsinə hakim idi. İkinci səfərimdə Qarabağ işğaldan azad olunsa da, Xankəndi düşmənin əlində idi və bunun da narahatlığı var idi.

Bu səfərimdə isə ünsiyyətdə olduğum insanlarda bir rahatlıq olduğunu hiss etdim. İnsanlar gələcəyə ümidlə baxırlar, indi torpaq dərdimiz yoxdur. Bundan sonra həyatımıza normal davam edəcəyik".

Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi Yığıncağının 29 noyabr 2023-cü il tarixli iclasında professor Əziz Səncər Milli Elmlər Akademiyasının fəxri üzvü seçilmişdir. Milli Elmlər Akademiyasının dəvəti ilə Nobel mükafatı laureatı, professor Əziz Səncər 2024-cü ildə ölkəmizə səfər etmişdir. Milli Elmlər Akademiyasının təşəbbüsü ilə 30 may - 6 iyun 2024-cü il tarixlərində "Əziz Səncər həftəsi" təşkil edilmişdir. Milli Elmlər Akademiyasının təşkil etdiyi "Əziz Səncər həftəsi" türk Nobel mükafatçısının Bakı şəhərindəki Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin məzarının, Şəhidlər Xiyabanının və Türk şəhidliyinin ehtiramla ziyarət edilməsi ilə başlamışdır. "Əziz Səncər həftəsi" çərçivəsində Nobel mükafatı laureatı Milli Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər Akademiyasının əhatə etdiyi elmi tədqiqat institutlarının əməkdaşları ilə görüşmüş, Akademiyanın Mərkəzi Elmi Kitabxanasında olmuşdur. Akademiya Ümumi Yığıncağının 3 iyun 2024-cü il tarixdə keçirilmiş iclasında Amerikanın Şimali Karolina Universitetinin professoru, Nobel mükafatı laureatı Əziz Səncərə Milli Elmlər Akademiyasının həqiqi üzvü diplomu və vəsiqəsi təqdim olunmuşdur.

*(Ardı 5-ci səhifədə)*

NOBEL MÜKAFATI LAUREATI ƏZİZ SƏNCƏR - 80

# Dünya elminin, türk dünyasının və Azərbaycanın Əziz Səncəri

*(Əvvəli 4-cü səhifədə)*

Eyni zamanda, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin tarixi binasında görkəmli elm xadiminin özünün iştirakı ilə Akademiya tərəfindən təsis edilmiş "Əziz Səncər şərəf otağı"nın rəsmi açılış mərasimi keçirilmişdir. Burada professor Əziz Səncərin haqqında yazılmış kitablar və məqalələrlə, habelə onun AMEA-ya təqdim etdiyi elmi əsərlərlə tanış olmaq mümkündür. Həmçinin AMEA Rəyasət Heyətinin qərarı ilə tibb və təbiət elmləri sahəsində mühüm elmi nailiyyətlər qazanmış görkəmli alimlərə vermək üçün "Əziz Səncər döş nişanı" təsis edilmişdir. İlk olaraq bu akademik mükafata Azərbaycandan Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov və  Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əliyev, Türkiyə Cümhuriyyətindən Türkiyə Elmlər Akademiyasının prezidenti, professor Müzəffər Şəkər və Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar layiq görülmüşlər.

"Əziz Səncər həftəsi"  günlərində Nobel mükafatı laureatı Əziz Səncərlə Bakı Dövlət Universitetində, ADA Universitetində, Tibb Universitetində, Yunus Əmrə İnstitutunda görüşlər təşkil edilmişdir. Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəylinin müşayiəti ilə professor Əziz Səncər Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. O, Naxçıvan Dövlət Universitetində muxtar respublikasının ziyalıları, universitetin professor-müəllim heyəti və tələbələri, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə görüşmüş, onların qarşısında çıxış etmiş, göstərilən yüksək diqqətə görə dərin minnətdarlığını bildirmişdir. Həmçinin Əziz Səncər Şərur rayonuna səfər edərək, uşaqlıq arzusunun izi ilə buradan Türkiyə ərazisindəki Ağrı dağını ziyarət etmişdir. Onun Şərur rayonunun Danyeri kəndinin sakinləri ilə tanış olması, yerli mətbəxdən istifadə etməsi də "Əziz Səncər həftəsi"nin yaddaqalan hadisələrindən biri olmuşdur.

Görkəmli elm xadimi, professor Əziz Səncər 3 iyun 2024-cü il tarixdə Milli Elmlər Akademiyasının Ümumi Yığıncağında "Türk dünyasının elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda elmi məruzə ilə çıxış etmiş, akademik cəmiyyətin suallarını cavablandırmışdır. Məruzənin adında ifadə olunan "türk dünyasının vahid elm siyasəti" Nobel mükafatı laureatı, professor Əziz Səncərin türk dünyasına elm vasitəsilə xidmət etmək üçün müəyyən etdiyi elmi konsepsiyadır. O, Nobel mükafatçısı kimi böyük elmi nüfuzundan istifadə edərək bütün imkanlarını Türkiyədə və Azərbaycanda, bütövlükdə türk dünyasında elmin inkişafına və yeni elmi nəslin formalaşmasına həsr edir. İxtisas etibarilə biokimya sahəsində dünya şöhrətli görkəmli elm xadimi olmasına baxmayaraq, professor Əziz Səncər geniş elmi dünyagörüşə və aydın siyasi baxışlara malik alim olduğu üçün o, elmi istiqamətindən asılı olmayaraq, bütün elm sahələrini əhatə edən konkret və düşünülmüş elm siyasəti həyata keçirmək vəzifəsini məsuliyyətlə və şərəflə yerinə yetirir. Böyük iftixar hissi ilə demək olar ki, Nobel mükafatı laureatı Əziz Səncər XXI əsr türk dünyası alimlərinin böyük ağsaqqalıdır. Türk xalqlarının elm adamları da Əziz Səncəri özlərinin fəxri kimi qəbul edir, ona xüsusi ehtiram göstərirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Şimali Karolina Universitetinin professoru, Nobel mükafatı laureatı Əziz Səncərin fəaliyyətini yüksək qiymətləndirir. Əziz Səncəri 2021-ci ildə Prezident İqamətgahında qəbul edən dövlət başçımız onun türk dünyası üçün çalışmalarının və Azərbaycanla əlaqələrinin mühüm əhəmiyyətə malik olduğunu bildirmişdir. Prezident İlham Əliyev Qarabağ müharibəsi dövründə Ermənistan tətəfindən Gəncə şəhərinin raket hücumlarına məruz qaldığı günlərdə hər iki valideynini itirmiş uşağa Əziz Səncərin yardım etməsini böyük insanpərvərlik nümunəsi hesab etmişdir. Bundan başqa, dövlətimizin başçısının dəstəyi ilə Əziz Səncər Azad Qarabağa səfər etmiş, tarixi diyardakı tarix və mədəniyyət abidələrini ziyarət etmək arzusunu gerçəkləşdirmişdir. Professor Əziz Səncər da öz növbəsində Prezident İlham Əliyevin Qarabağda qazandığı tarixi Zəfərin tarixdə xüsusi yeri olan böyük qələbə olmasını qürur hissi ilə qeyd etməklə, bundan sonrakı dövrlərdə də Azərbaycan elminin inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini diqqətə çatdırmışdır.

Elm sahəsindəki böyük nailiyyətləri və Azərbaycanla əlaqələri nəzərə alınmaqla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə professor Əziz Səncər "Azərbaycan Respublikasının Prezidentinin Fəxri Diplomu ilə təltif olunmuşdur.

Son illərdə Nobel mükafatı laureatı Əziz Səncərin elm sahəsindəki böyük xidmətləri türk dünyası miqyasında da qiymətləndirilmişdir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının - TÜRKSOY Daimi Şurasının 13 oktyabr 2023-cü il tarixdə Şuşa şəhərində qəbul etdiyi Qərara əsasən ona "Türk Dünyasının Mədəniyyət elçisi" fəxri adı verilmişdir. Bundan başqa, Türk Dövlətləri Təşkilatı da professor Əziz Səncəri ilk dəfə təsis olunan Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif etmişdir. Professor Əziz Səncər bu mükafata türk sivilizasiyasının inkişafına verdiyi elmi və mənəvi töhfələrə, türk dünyası üçün ortaq dəyərlərin təşviqindəki xidmətlərinə görə layiq görülmüşdür.

Bu il sentyabr ayının 8-də Nobel mükafatı laureatı, professor   Əziz Səncərin anadan olmasının 80 illiyi tamam olmuşdur. Bu münasibətlə Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Əziz Səncər Akademiyanın döş nişanı ilə təltif olunmuş, görkəmli alim haqqında akademik İsa Həbibbəylinin monoqrafiyası "Elm" nəşriyyatında nəşr edilmişdir. Onu da oxuculara çatdırmaq istəyirəm ki, 8 sentyabr 2026-cı il tarixdə AMEA-da professor Əziz Səncərin 80 illik yubileyi münasibətilə elmi sessiya keçirilmişdir. Tədbirdə professor Əziz Səncər özü də onlayn formatda iştirak və çıxış etmişdir.

Dünya şöhrətli görkəmli elm xadimi, Nobel mükafatı laureatı Amerika Şimali Karolina Universitetinin professoru Əziz Səncərin 80 illik yubileyi beynəlxalq elmi ictimaiyyət üçün əlamətdar hadisədir. Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü professor Əziz Səncərin yubileyi türk dünyasında, Türkiyədə və Azərbaycanda isə elmin təntənəsi və bayramı kimi qeyd olunur. Görkəmli elm xadimini və əziz dostumuzu 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, türk dünyası alimlərinin böyük ağsaqqalına elm yollarında daha böyük uğurlar və möhkəm cansağlığı arzulayırıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 sentyabr 2026-cı il tarixdə Nobel mükafatı laureatı Əziz Səncəri "Şöhrət" ordeni ilə təltif etmişdir. Görkəmli elm xadimi və yubilyarımızı bu münasibətlə ürəkdən təbrik edirik.

Azərbaycanda yeni görüşlərədək, möhtərəm yubilyarımız!

***İsa HƏBİBBƏYLİ***
***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

## İslam dünyasının mədəni irsində Seyid Yəhya Bakuvi zirvəsi: mötədil dəyərlər və müasir çağırışlar

# İsa Həbibbəyli: Seyid Yəhya Bakuvi Azərbaycan mənəviyyatının dünyaya açılan qapısıdır

**Seyyid Yəhya Bakuvinin mənəvi kamilləşmə və mənəvi saflaşma haqqında təlimi əsrlər boyu ədalət, humanizm, insanpərvərlik və sülh ideallarının yayılmasına mühüm töhfələr verib.**




Bu fikirləri Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli "İslam dünyasının mədəni irsində Seyid Yəhya Bakuvi zirvəsi: mötədil dəyərlər və müasir çağırışlar" mövzusunda keçirilən I Beynəlxalq konfransda çıxışı zamanı bildirib.

Akademik qeyd edib ki, Seyid Yəhya Bakuvinin 20-dən çox elmi və dini-ideoloji əsərində, eləcə də qəzəllərində insanlığın, müsəlman dünyasının və türk aləminin mənəvi saflaşması və kamilləşməsinin əsas istiqamətləri, idealları və ideyaları mükəmməl şəkildə əksini tapıb.

"Prezident İlham Əliyevin ölkədə milli-mənəvi dəyərlərin qorunması, ədəbi-tarixi irsin yenidən gündəmə gətirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi genişmiqyaslı siyasət Seyid Yəhya Bakuvinin adını ucaltdığı Xəlvətiyyə təriqətinin müstəqillik illərində yenidən öyrənilməsi və yeni həyat qazanması üçün mühüm imkanlar yaradıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın məhz Seyid Yəhya Bakuvinin adı ilə bağlı olan tarixi məkanların, xüsusilə Xəlvətiyyə kompleksinin yenidən qurulması, abadlaşdırılması və beynəlxalq aləmdə tanıdılması istiqamətində gördüyü işlər də bu sahədə mövcud reallıqların dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayıb.

Xüsusilə minnətdarlıq hissi ilə qeyd etmək istəyirəm ki, Seyid Yəhya Bakuvinin irsi Mehriban xanım Əliyevanın həyata keçirdiyi işlər sayəsində UNESCO miqyasında keçirilən beynəlxalq konfransda qeyd olunub və bəşəriyyətə təqdim edilib", - deyə akademik bildirib.

AMEA prezidenti diqqətə çatdırıb ki, Azərbaycan Milli Elmlər Akademiyası da ölkədə müxtəlif təriqətlərin, o cümlədən Xəlvətiyyə təriqətinin və onun banisi, əsas yaradıcılarından biri olan Seyid Yəhya Bakuvinin irsinin öyrənilməsi, araşdırılması və tədqiqi istiqamətində öz töhfələrini verməkdədir.

# AMEA əməkdaşları beynəlxalq konfransda çıxış ediblər

**Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının 7-ci görüşü çərçivəsində keçirilən "İslam dünyasının mədəni irsində Seyid Yəhya Bakuvi zirvəsi: mötədil dəyərlər və müasir çağırışlar" mövzusunda I beynəlxalq konfransı öz işini davam etdirib.**




Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə, Türk Dövlətləri Təşkilatının, eləcə də bir sıra ölkələrin müsəlman dini idarə rəhbərləri və aidiyyəti şəxslər iştirak ediblər.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun moderatorluğu ilə keçirilən konfransın ikinci günündə AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli, həmçinin Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti professor Bahrom Abdukhalimov və başqaları çıxış edərək Seyyid Yəhya Bakuvinin elmi-fəlsəfi irsinin İslam dünyasının düşüncə tarixindəki rolundan, onun təsəvvüfi-fəlsəfi görüşlərinin elmi və nəzəri əhəmiyyətindən bəhs ediblər.

Çıxışlarda alimin əsərlərinin tədqiqi, onun elmi irsinin müasir şərqşünaslıq və fəlsəfə araşdırmaları baxımından əhəmiyyəti, eləcə də irsin elmi dövriyyəyə gətirilməsi və beynəlxalq səviyyədə öyrənilməsi məsələlərinə diqqət çəkilib. Bununla yanaşı, Seyid Yəhya Bakuvinin irsində əksini tapan mötədil dəyərlərin müasir dövrdə mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına, sülh və qarşılıqlı anlaşma mühitinin möhkəmləndirilməsinə verdiyi töhfələr vurğulanıb.

Qeyd edək ki, konfransın həmtəşkilatçıları Qafqaz Müsəlmanları İdarəsi və Türk Dövlətləri Təşkilatı ilə birgə Azərbaycan Milli Elmlər Akademiyası, İSESKO, İRSİKA, Müsəlman Ağsaqqalları Şurasıdır.

# Gövhər Baxşəliyeva: Sufizm Azərbaycanın mənəvi həyatında böyük rol oynayıb

**Möhtəşəm müsəlman sivilizasiyası kontekstində yaranan böyük intibah misli görülməmiş dini, elmi və mədəni inkişafla müşayiət edilib. Həmin böyük inkişaf nəticəsində müsəlman aləmi elmin bir çox sahələrində - fəlsəfə, riyaziyyat, həndəsə, coğrafiya, astronomiya, incəsənət, ədəbiyyat və poeziyada misli görülməmiş çiçəklənmə dövrünə qədəm qoyub. Mənəvi paklaşma və saflaşma yolunu təbliğ edən cərəyanlar geniş vüsət alıb, müxtəlif sufi təriqətlər yaranıb.**



Bunu AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının 7-ci görüşü çərçivəsində keçirilən "İslam dünyasının mədəni irsində Seyid Yəhya Bakuvi zirvəsi: mötədil dəyərlər və müasir çağırışlar" mövzusunda Birinci Beynəlxalq konfransın ikinci günündə çıxışı zamanı deyib.

Akademik qeyd edib ki, Şərqşünaslıq İnstitutunda Şərqin digər sahələri ilə yanaşı, fəlsəfə, din və müxtəlif dini cərəyanlar daim tədqiq edilib. Bu sahədə onlarla dissertasiya müdafiə olunub, yüzlərlə tədqiqat aparılıb, kitablar nəşr edilib.

O bildirib ki, Seyid Yəhya Bakuvinin əsərləri də institutda daim diqqət mərkəzində olub, tədqiq və tərcümə edilib, müxtəlif dövrlərdə işıq üzü görüb.

# Pakistan Ədəbiyyat Akademiyasının prezidenti Nəcibə Ariflə görüş

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Pakistan Ədəbiyyat Akademiyasının prezidenti professor Nəcibə Ariflə görüşüb.**



AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə akademik İsa Həbibbəyli Pakistanın hər zaman Azərbaycana dost, qardaş ölkə olduğunu, son illərdə dövlət başçılarımızın sıx münasibətləri sayəsində ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən elm sahəsində geniş əməkdaşlıq münasibətlərinin qurulduğunu və inkişaf etdirildiyini söyləyib.

Elmi əməkdaşlıq əlaqələri nəticəsində Akademiyada Pakistan ədəbiyyatı ilə bağlı tədqiqatların aparıldığını, AMEA-nın Ədəbiyyat İnstitutu tərəfindən Məhəmməd İqbalın "Seçilmiş əsərləri"nin Azərbaycan dilinə tərcümə edildiyini deyən akademik İsa Həbibbəyli, eyni zamanda "Kitabi-Dədə Qorqud" dastanının və özünün "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" adlı kitabının urdu dilinə tərcümə edilərək Pakistanda təqdimatlarının keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, Ədəbiyyat İnstitutu tərəfindən Sultan Bahonun əsərləri də tərcümə edilib və çap ərəfəsindədir.

Bundan əlavə, Azərbaycan Milli Elmlər Akademiyasının Pakistan Ədəbiyyat Akademiyası, Lahor Dövlət Kollec Universiteti, Pakistan Müslüm İnstitutu, Sinqh Universiteti və digər akademik qurumları ilə geniş əlaqələrinin olduğunu, hazırda AMEA-nın Ədəbiyyat İnstitutunda Pakistan Ədəbiyyatı Mərkəzinin, Lahor Dövlət Kollec Universitetində isə öz növbəsində Azərbaycan Ədəbiyyatı Mərkəzinin fəaliyyət göstərdiyini vurğulayıb.

AMEA rəhbəri bu ilin oktyabr ayında keçiriləcək, Pakistanın da təmsil olunacağı 12-ci Bakı Beynəlxalq kitab sərgisində sərgi çərçivəsində birgə tədbirin keçirilməsini təklif edib.

Sonra çıxış edən Pakistan Ədəbiyyat Akademiyasının prezidenti professor Nəcibə Arif səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirib, elmi və ədəbi əlaqələrimizin inkişafından məmnunluğunu dilə gətirib. O, 12-ci Bakı Beynəlxalq kitab sərgisində sərgi çərçivəsində birgə tədbirin keçirilməsini müsbət dəyərləndirib, müştərək tədbirlərin elmi əlaqələrimizin dərinləşməsinə və genişlənməsinə töhfə verdiyini söyləyib. Professor Nəcibə Arif Pakistan Ədəbiyyat Akademiyasında Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı tərcümə işlərinin davam etdirildiyini diqqətə çatdırıb.

Çıxışlardan sonra xatirə hədiyyələri təqdim edilib.

# Auditorlar Palatası bazar iqtisadiyyatına əsaslanan yeni cəmiyyət quruculuğunun tənzimlənməsinə mühüm töhfələr verib

**Gəldiyim nəticələr Azərbaycanda bazar iqtisadiyyatına əsaslanan yeni cəmiyyət quruculuğunda Auditorlar Palatasının nəyə qadir olduğunu, hansı imkanlara malik olduğunu, necə xidmət etdiyini aydın şəkildə təsəvvür etməyə şərait yaradır. Auditorlar Palatası, bütövlükdə bazar iqtisadiyyatına əsaslanan yeni cəmiyyət quruculuğunun tənzimlənməsi prosesinə özünün fəaliyyəti ilə mühüm töhfələr verib.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəyli Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş tədbir və "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda deyib.

O bildirib ki, Auditorlar Palatası iqtisadçıların müdrik dəstəkçisi, auditorların isə etibarlı bələdçisi kimi Azərbaycan cəmiyyətinə xidmət etməkdə öz məsuliyyətli yolunu şərəflə davam etdirməkdədir: "Auditorlar Palatasının əhatə etdiyi sferada elm yönümlü auditlər, auditorluğun əmsalı artıb. Audit tədqiqatlarının iqtisad elminin istiqamətlərindən birinə çevrilməsi professor Vahid Novruzovun həm Auditorlar Palatası qarşısında, həm də elm qarşısındakı xidmətinin əməli ifadəsi kimi çox mühüm bir əhəmiyyətə malikdir. Bütün




bunlara görə Azərbaycan Auditorlar Palatası Azərbaycanda müstəqil dövlətçiliyin, özəl sektorla dövlət sektorunun harmoniyasının formalaşmasına, bazar iqtisadiyyatından cəmiyyətin inkişafına bu 30 ildə şərəflə xidmət etdiyini aydın şəkildə nümayiş etdirir. Hesab edirəm ki, bu gün Auditorlar Palatasının 30 illik yubileyinin keçirilməsi ilə əlaqədar təşkil olunan bu yubiley tədbiri və konfrans palatanın müstəqil Azərbaycan dövləti qarşısında şərəfli hesabatıdır".

# *Akademik:* Süni intellekt sahəsində dövlət siyasəti riyaziyyat elminin prioritetlərinə və tədrisinə yenidən baxılmasını zəruri edir



**Bu gün süni intellekt sahəsində biliklərə dərindən yiyələnmək üçün ehtimal nəzəriyyəsi, riyazi statistika, riyazi məntiq, ali cəbr və digər riyazi metodların mənimsənilməsi məsələləri böyük aktuallıq kəsb edir. Bu baxımdan elm və təhsil müəssisələrinin, eləcə də müvafiq dövlət qurumlarının iştirakı ilə süni intellektə, riyaziyyata dair biliklərin tədrisi və müvafiq sahələrdə yüksəkixtisaslı kadr hazırlığı ilə bağlı dəyirmi masaların keçirilməsi, elmi müzakirələrin aparılması böyük önəm kəsb edir.**

Bu fikirləri açıqlamasında AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev bildirib. Akademik Rasim Əliquliyev müasir dövrdə süni intellekt texnologiyalarının qlobal inkişafın əsas lokomotivlərindən birinə çevrildiyini, rəqəmsallaşma sahəsində dünyada inqilabi proseslərin getdiyini deyib. Ölkəmizdə bu sahə ilə bağlı ardıcıl və sistemli tədbirlərin həyata keçirildiyini, Prezident İlham Əliyev tərəfindən mühüm dövlət proqramları, strategiyalar və digər normativ-hüquqi sənədlərin qəbul edildiyini diqqətə çatdırıb.

Alim dövlət başçısının müvafiq Fərmanına əsasən ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasının yaradılmasının strateji əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, Şuranın yaradılmasında əsas məqsəd ölkəmizdə rəqəmsal transformasiyanın sürətləndirilməsi, süni intellekt əsaslı yeni arxitektur tələblərə uyğun rəqəmsal dövlət infrastrukturunun formalaşdırılması və cəmiyyətin bütün sektorları üzrə harmonik inkişafın təmin olunmasıdır.

AMEA-nın vitse-prezidentinin sözlərinə görə, ölkədə rəqəmsal inkişaf sahəsində aparılan dövlət siyasətinin əsas hədəflərindən biri də elmi cəhətdən əsaslandırılmış milli data ekosisteminin formalaşdırılmasıdır. Akademik data suverenliyinin təmin olunmasının dövrümüzün ən mühüm çağırışlarından biri olduğunu qeyd edərək, səhiyyə, iqtisadiyyat, nəqliyyat və s. kimi müxtəlif fəaliyyət sahələrində toplanan məlumatların vahid prinsiplər və tələblər əsasında idarə olunması və müvafiq data ekosisteminin formalaşdırılmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Müasir dövrdə riyaziyyatın yalnız fundamental elm sahəsi kimi deyil, həm də süni intellekt, informasiya texnologiyaları, iqtisadiyyat, mühəndislik və digər sahələrdə əsas metodoloji baza kimi çıxış etdiyini vurğulayan alim maşın təlimi, dərin təlim, qeyri-səlis riyaziyyat, xətti cəbr, kriptoqrafiya və s. kimi sahələrin riyazi əsaslara söykəndiyini qeyd edib. Alim əlavə edib ki, riyazi metod və yanaşmaların süni intellekt sahəsində geniş tətbiqi milli süni intellekt modellərinin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır.

O, son zamanlar Elm və Təhsil Nazirliyi tərəfindən müasir çağırışlara və ölkənin strateji maraqlarına adekvat kompleks tədbirlərin həyata keçirildiyini, ali məktəblərdə yeni kafedraların yaradıldığını, müvafiq ixtisasların açıldığını bildirib: "Bununla yanaşı, hazırda ölkəmizdə süni intellekt sahəsində yüksəkixtisaslı kadr hazırlığına daha sistemli yanaşmanın formalaşdırılmasına, riyaziyyatın süni intellektlə bağlı prioritetlərinin müəyyənləşdirilməsinə ciddi ehtiyac var".

Alim Azərbaycan elminin dünya elminə inteqrasiyasında riyazi bilik və təfəkkürün inkişafının vacibliyini vurğulayaraq elmi tədqiqatlarda riyazi modelləşdirmədən daha geniş istifadə edilməsinin zəruriliyini diqqətə çatdırıb. Bildirib ki, ali təhsil müəssisələrində "Süni intellektin riyazi əsasları" adlı yeni fənnin tədrisi, kompüter elmləri və riyaziyyat sahəsində fəaliyyət göstərən alim və mütəxəssislərin birgə fəaliyyətinin təmin edilməsi və bu istiqamətdə koordinasiyanın gücləndirilməsi məqsədəuyğundur.

"XXI əsrin tələbləri, qlobal çağırışlar, eləcə də ölkəmizdə süni intellektlə bağlı həyata keçirilən daxili və xarici siyasət bu istiqamətdə beynəlxalq təcrübənin daha dərindən öyrənilməsini, elmi potensialın səfərbər olunmasını zəruri edir", - deyən akademik Azərbaycanın texnoloji və rəqəmsal suverenliyinin təmin olunması istiqamətində alimlərin, xüsusilə riyaziyyatçıların mühüm rola malik olduqlarını qeyd edib.

# AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclası



**AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclası keçirilib.**

İclası giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, AMEA-nın həqiqi üzvü, akademik İsmayıl Hacıyev gündəlikdə duran elmi-təşkilati və kadr məsələləri barədə ətraflı məlumat verib.

Akademik Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı ilə bağlı sərəncamları və səfəri haqqında geniş danışaraq bildirib ki, bu mühüm səfər muxtar respublikanın gələcək inkişafı və təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm addımdır. Qeyd olunub ki, dövlət başçısının 12 avqust 2026-cı il tarixli müvafiq Sərəncamında məşğulluğun artırılması, nəqliyyat infrastrukturunun şaxələndirilməsi, bərpaolunan enerjidən istifadənin genişləndirilməsi, təhsil müəssisələrinin yenilənməsi kimi mühüm prioritetlər yer alıb. Ayrılan maliyyə vəsaiti isə Naxçıvanın infrastruktur bazasını möhkəmləndirməklə yanaşı, ölkənin ümumi inkişafına da böyük töhfə verəcək.

Akademik həmçinin bölmə əməkdaşlarının ali təhsil müəssisələrində yarımştat və saathesabı dərs apramaları barədə danışıb.

AMEA Naxçıvan Bölməsi Təchizat və xidmət şöbəsinin müdiri İlham Cəfərov AMEA Naxçıvan Bölməsində 2025-2026-cı illərin payız-qış mövsümünə hazırlığın vəziyyəti barədə məruzə edərək, bölmənin və tabeli qurumların mövsümə tam hazır olduğunu diqqətə çatdırıb.

Bölmə sədri İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsinin Maliyyə və mühasibat şöbəsinə müdir təyin edilməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi və Rəyasət Heyətinə elmi katibin təyin edilməsi haqqında məlumat verib. Rəyasət Heyətinin qərarı ilə AMEA Naxçıvan Bölməsinin Maliyyə və mühasibat şöbəsinin müdiri vəzifəsinə Sərdar Muradov, AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin elmi katibi vəzifəsinə isə filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıl təyin edilib.

Akademik İsmayıl Hacıyev onları təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıl göstərilən yüksək etimada görə rəhbərliyə dərin minnətdarlığını bildirib.

Sonra AMEA Naxçıvan Bölməsi Aparatının Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov AMEA Naxçıvan Bölməsinə 2026-cı il üçün doktoranturaya qəbulun yekunları barədə, Bölmənin sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov isə cari məsələlər haqqında məlumat verib.

Tədbir mövzu ətrafında aparılan müzakirələrlə yekunlaşıb.

# AMEA-da Nobel mükafatı laureatı Əziz Səncərin 80 illik yubileyi münasibətilə keçirilən konfrans Türk dünyası mediasında

Sentyabrın 8-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclas zalında AMEA-nın fəxri üzvü, Nobel mükafatı laureatı, professor Əziz Səncərin 80 illik yubileyinə həsr olunmuş elmi konfrans Türkiyə, Şimali Kipr, Belçika, Şimali Makedoniya və Kərkükdə fəaliyyət göstərən - "liderhaber", "guvengazetesi", "yesiligdir", "karabukmedya", "globalbakis", "tum1haber", "tekbayrak", "vansiyaseti", "kerkukgazetesi", "haberiniz", "birlik.mk", "ajanscyprus", "gundem.be" kimi xəbər saytlarında geniş işıqlandırılıb.

# Neft - qaz sahəsinin dayanıqlı inkişafının fundamental əsasları

**Azərbaycanın neft-qaz sektoru: Texnoloji və elmi-təhsil sıçrayışı bu gün Bakı - XIX əsrdə ilk sənaye quyusunun fontan vurduğu dəniz neft hasilatının sadəcə tarixi beşik-məkanı deyildir. 2026-cı il sentyabrın 20-də Azərbaycan özünün əsas peşə bayramını - Neftçilər Gününü XXI əsrin energetika texnologiyalarının sınaqdan keçirildiyi dinamik poliqon və Avropa regionunun energetika təhlükəsizliyinin əsas təminatçılarından biri statusunda qeyd edir.**




Qlobal iqlim keçidi və ənənəvi "yüngül" ehtiyatların tədricən tükənməsi fonunda Xəzər regionu miqyaslı texnoloji və elmi-təhsil sıçrayışına hazırlaşır. Azərbaycan yaxın onilliklər ərzində öz dominantlığını necə təmin etməyi planlaşdırır və Bakı ali təhsil müəssisələri süni intellekt və "rəqəmsal neft" erasında tədris prosesini necə yenidən qurur?

### Uzunmüddətli fəaliyyətin elmi əsasları

Azərbaycanın neft-qaz kompleksinin uzunmüddətli davamlılığı üç əsas sütuna söykənir:

- Dərin çöküntü qatı: Cənubi Xəzər hövzəsində (CXH) onun qalınlığı 20-25 km-ə çatır.
- Köhnə yataqların dərin horizontlardan qidalanması: Resursların bərpa olunması və hətta yenilənə bilməsi haqqında danışmağa imkan verir.
- Anomal yüksək lay təzyiqi: Karbohidrogenlərin maye və qaz fazalarını rekord dərinliklərdə saxlayır.
- Hazır infrastrukturlar: İnkişaf etmiş neft və qaz kəmərlərinin mövcudluğu yeni yataqların mənimsənilməsi üçün kapital xərclərini (CAPEX) azaldır.

### Ultra-dərin yataqlar uğrunda mübarizə

Bəsit neft dövrü geridə qalır, lakin Xəzərin karbohidrogen erasının güclü renesansı yaşanır. Cənubi Xəzər hövzəsinin əsas xəzinələri bu gün 7-dən 10 kilometrədək olan ekstremal dərinliklərdə gizlənmişdir.

- AÇG-nin dərin qazı: Flaqman yataqlar bloku olan "Azəri-Çıraq-Günəşli" yeni sıçrayışa hazırlaşır. Mövcud neft horizontlarından aşağıda yerləşən layların mənimsənilməsi ölkənin ixrac potensialını dəfələrlə artıracaqdır.
- Abşeron və Ümid-Babək amili: Uğurlu sınaqlar ultra-dərin yataqların kommersiya baxımından effektiv olduğunu sübut etdi.
- Boru kəmərlərinin inkişaf etmiş şəbəkəsi: Cənub Qaz Dəhlizi (CQD) də daxil olmaqla, Azərbaycanın Avropa bazarında əsas oyunçu statusuna zəmanət verir.

Skeptiklər xammal istehlakının pik həddi barədə mübahisə etdikləri bir vaxtda, respublika görünməz ehtiyatları işə sala bilər. Abşeron yarımadasında və Qobustanda milyonlarla ton təbii bitum, o cümlədən palçıq vulkanlarındakı ehtiyatlar istilik təsiri metodlarının tətbiqini gözləyir. Eyni zamanda İsmayıllı və Quba rayonları ölkəyə şist yağı və sintetik neft verməyə hazırdır. Yerli elm üçün ən futuristik çağırış isə Xəzərin dibindəki qaz hidratlarıdır.

### Qaz trilyonu: İxrac sıçrayışının iqtisadiyyatı

Energetika Nazirliyinin aktual məlumatlarına əsasən, respublika Qərb istiqamətində tədarükün strateji olaraq iki dəfə artırılması istiqamətində planlı şəkildə irəliləyir. 2027-ci il üçün hədəf göstəricisi - Avropaya qaz tədarükü səviyyəsinin ildə 20 milyard kubmetrə çatdırılmasıdır.

Yalnız cari 2026-cı ilin ilk yeddi ayı ərzində Avropa bazarlarına ixrac artıq 14,4 milyard kubmetri ötüb. Üstəlik, bu il Azərbaycan daha iki Avropa dövlətinə tədarükə başlayaraq alıcılar şəbəkəsini genişləndirir.

### Süni intellekt və "rəqəmsal yataqlar"

Böyük dərinliklərin və mürəkkəb resursların mənimsənilməsi təhsil sisteminin köklü şəkildə yenidən qurulmasını tələb edir. Ənənəvi neftçi mühəndisliyi tədricən verilənlər mühəndisliyi ilə tamamlanır.

Ölkənin profilli ali təhsil müəssisələri - ADNSU, BANM və Bakı Dövlət Universiteti süni intellekt, Big Data və yataqların rəqəmsal əkizlərinin yaradılması üzrə proqramları fəal şəkildə tətbiq edirlər. Elm və biznesin (SOCAR, BP və beynəlxalq konsorsiumlar) sıx inteqrasiyasında gənc, rəqəmsallaşdırılmış mühəndis elitası yetişir.

Xəzərin kolosal dərinliklərinin, qeyri-ənənəvi sərvətlərinin və müasir elmin vəhdəti təmin edir ki, Azərbaycan bütün XXI əsr boyunca makroregionun energetika təhlükəsizliyinin əsas təminatçısı olaraq qalacaqdır.

**Bayramınız mübarək!**

*İbrahim QULİYEV*
*AMEA-nın vitse-prezidenti, akademik*

# RSXM əməkdaşları Avropa Seysmoloji Komissiyasının Baş Assambleyasının iclasında

**Avropa Seysmoloji Komissiyasının (ESC) 40-cı Baş Assambleyası çərçivəsində Avropa-Aralıq dənizi Seysmoloji Mərkəzinin (EMSC) Baş Assambleyasının iclası keçirilib.**




EMSC-nin Baş Assambleyası çərçivəsində zəlzələlərin operativ monitorinqi, seysmoloji məlumatların mübadiləsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, zəlzələ parametrlərinin sürətli müəyyənləşdirilməsi sistemlərinin təkmilləşdirilməsi və EMSC-nin gələcək fəaliyyət istiqamətləri ilə bağlı məsələlər müzakirə edilib. EMSC Baş Assambleyasının ESC-nin Baş Assambleyası çərçivəsində keçirilməsi Avropa və Aralıq dənizi regionlarının seysmoloji icmaları arasında elmi və institusional əməkdaşlığın inkişafına mühüm töhfə verir.

AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzini Zəlzələlərin tədqiqatı bürosunun rəisi yer elmləri üzrə fəlsəfə doktoru Səidə İsmayılova və Zəlzələ ocaqlarının dinamikası şöbəsinin müdiri geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, dosent Səbinə Kazımova iclasda onlayn şəkildə Zoom platforması üzərindən qoşularaq iştirak ediblər.

İclasda iştirak Avropa seysmologiyasının müasir inkişaf istiqamətləri, seysmikliyin monitorinqinə yeni yanaşmalar, operativ seysmoloji məlumatların beynəlxalq mübadiləsi və seysmoloji təşkilatlar arasında gələcək elmi əməkdaşlığın perspektivləri ilə tanış olmaq imkanı yaradıb.

YUBİLEY

# Bir ömrün musiqi salnaməsi

**Azərbaycan musiqişünaslıq elmində xalq musiqisinin, xüsusilə aşıq sənətinin tədqiqi istiqamətində mühüm elmi nəticələr əldə etmiş alimlərdən biri də İradə Köçərlidir. Onun uzun illər ərzində apardığı elmi araşdırmalar Azərbaycan etnomusiqişünaslığının inkişafında xüsusi yer tutur. Alimin yaradıcılıq yolu xalq musiqisinin mühüm problemlərinin araşdırılması, aşıq sənətinin nəzəri və praktik xüsusiyyətlərinin öyrənilməsi, eləcə də milli musiqi irsinin toplanması, nota yazılması və elmi dövriyyəyə daxil edilməsi ilə səciyyələnir. Azərbaycan xalq musiqisinin müxtəlif mövzularına həsr edilmiş 3 monoqrafiya, 14 elmi kitab, onlarla elmi məqalə və məruzələrin müəllifi olan İ.Köçərli həmçinin xeyli sayda tədris proqramları və metodik vəsaitlərin müəllifi və elmi redaktorudur.**



İ.Köçərli 11 sentyabr 1956-cı ildə Gədəbəyin İsalı kəndində dövrün tanınmış ziyalısı, tarixçi, pedaqoq və elm xadimi Tofiq Köçərlinin ailəsində dünyaya göz açmışdır. 1963-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində, daha sonra Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. Müxtəlif illərdə Sumqayıt Musiqi Texnikumunda, Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda müəllimlik fəaliyyəti ilə məşğul olmuş, 1989-cu ildən isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində baş müəllim, dosent, kafedra müdiri, professor kimi çalışmışdır. 2000-ci ildən etibarən İ.Köçərli AMEA Memarlıq və İncəsənət İnstitutunun "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" şöbəsində çalışır və 2014-cü ildən şöbəyə (struktur dəyişikliklərindən sonra şöbə "Musiqi folkloru" adlanır) rəhbərlik edir. 1994-cü ildə İ.Köçərli "Azərbaycan xalq musiqi yaradıcılığında şikəstə" adlı dissertasiya işini müdafiə edərək sənətşünaslıq üzrə fəlsəfə doktoru, 2012-ci ildə "Aşıq sənətində sinkretizm və sintez problemlərinin tədqiqi" adlı doktorluq dissertasiyasını müdafiə edərək sənətşünaslıq doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 2017-ci ildə alim Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə Professor elmi adına layiq görülmüşdür.

İradə Köçərlinin yaradıcılığı xalq musiqisinin mühüm problemlərini əks etdirən elmi əsərlərlə zəngindir. "Azərbaycan xalq musiqi yaradıcılığında Şikəstə" adlı elmi tədqiqat əsəri alimin yaradıcılıq yolunun əsas istiqamətini müəyyənləşdirmişdir. Beləliklə, İradə Köçərlinin aşıqşünaslıq istiqamətindəki çalışmaları ildən-ilə genişlənərək "Aşıq sənəti - musiqili-poetik janrlar", "Aşıq sənəti: sinkretizm və sintez problemləri" kimi mühüm elmi tədqiqatları əks etdirən monoqrafiyaların ərsəyə gəlməsinə yol açmışdır. Özündən əvvəlki alimlərin nailiyyətlərinə yüksək qiymət verən və öz əsərlərində onlara daim müraciət edən İ. Köçərlinin aşıq sənətinə verdiyi mühüm töhfələr, ilk növbədə, müəllifin toxunduğu elmi problemlərin yeniliyi və dərinliyi ilə ölçülür. Alim tərəfindən aşıq sənətinin ən mühüm cəhətlərindən biri olan sinkretizm probleminin yenidən aktuallaşdırılması və sintez problemi ilə qarşılaşdırılması Azərbaycan aşıqşünaslığında ilk dəfə həyata keçirilmişdir. Doktorluq dissertasiyasının əsas problemi kimi işlənmiş bu mövzu alimin növbəti tədqiqatlarında yeni müddəaların formalaşmasına təsir edərək İ.Köçərlinin aşıqşünas kimi elmi mövqeyini ortaya qoymuşdur. Saz-söz tandemində təbii sinkretizmdən sintezə gedən mədəni proseslərin kompleks yanaşma metodları ilə öyrənilməsi müəllifin aşıq sənəti ilə bağlı elmi araşdırmalarında aparıcı mövqe daşıyır.

İ. Köçərlinin elmi fəaliyyətində əhəmiyyətli istiqamətlərdən biri də xalq musiqisinin toplanması, nota yazılması və nəşri ilə bağlı araşdırmalardır. Dahi Üzeyir bəy hər zaman xalq musiqisinin toplanmasını, nota yazılmasını və öyrənilməsini tövsiyə etmiş, öz həmkarlarını və tələbələrini bu mühüm işə sövq etmişdir.

İradə Köçərlinin kitabları Azərbaycan xalq musiqisinin öyrənilməsi və folklor irsinin yenidən araşdırılması üçün mühüm elmi perspektivlər vəd edən tədqiqatlara yol açır. Bu kitablarda keçən əsrin 30-40-cı illərində toplanmış, nota yazılmış və məcmuələrə daxil edilmiş xeyli sayda musiqi nümunəsinin yenidən üzə çıxarılması, təhlili və müqayisəsi, eləcə də müasir not proqramları vasitəsilə tərtib edilməsi həyata keçirilmişdir. Bu isə etnomusiqişünas alimlərin diqqətini yenidən həmin zəngin irsə yönəltməklə yanaşı, xalq musiqimizin tarixi-mədəni dəyərlərinin araşdırılması, sistemləşdirilməsi və müasir elmi dövriyyəyə daxil edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

İradə Köçərlinin 70 illik ömrünün əsas hissəsi həm də onun pedaqoji fəaliyyəti ilə bağlı olmuşdur. Uzun illər ölkənin nüfuzlu ali musiqi təhsili müəssisələrində çalışan alimin 44 il ərzində yetişdirdiyi yüzlərlə tələbələri bu gün respublikanın mühüm mövqelərində yer tutaraq milli musiqimizi layiqincə təmsil edir. Onlarla tələbəyə elmi rəhbərlik etmiş İ.Köçərlinin pedaqoji nailiyyətləri musiqi elmimizə bəxş etdiyi gənc tədqiqatçıların fəaliyyətində uğurlu nəticəsini tapır. Öz tələbələrinə daim sevgi və qayğı ilə yanaşan İ. Köçərli onların uğurlarına sevinir, müxtəlif tədbirlərdə onlardan qürur və fəxrlə danışır, yeni elmi və karyera pillələrinə yüksəlmələrinə səy göstərir. Bu cəhət onun əsl müəllim kimi yüksək şəxsiyyətinin bariz nümunəsidir. İ.Köçərli 2013-cü ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə təltif edilmişdir.

Bu il İradə xanım 70 yaşını qeyd edir. Bir insan üçün 70 yaş ömrün müdriklik çağıdır, lakin bir alim üçün sanki deyiləsi sözlər, görüləsi işlər, paylaşılacaq elmi düşüncələr hələ qarşıdadır. Öz məhsuldar elmi və pedaqoji fəaliyyəti, gənc nəslə örnək ola biləcək yüksək mənəvi keyfiyyətləri, insanlıq nümunəsi və səmimiyyəti ilə onu tanıyan hər kəsin qəlbində dərin hörmət və sevgi qazanan dəyərli alim, peşəkar pedaqoq və gözəl insan İradə Köçərliyə bundan sonrakı həyat yolunda möhkəm cansağlığı, uzun ömür, yeni yaradıcılıq və elmi uğurlar arzulayırıq. İnanırıq ki, onun zəngin elmi-pedaqoji təcrübəsi, dəyərli araşdırmaları və gənc musiqişünas nəslin yetişdirilməsinə verdiyi töhfələr bundan sonra da musiqi elmimizin inkişafına və zənginləşməsinə xidmət edəcəkdir. Qoy qarşıdakı illər İradə xanıma yeni elmi ideyalar, yaradıcılıq enerjisi və sevinc bəxş etsin, ömrünün bu müdrik çağı isə onun üçün yeni uğurların və gözəl başlanğıcların dövrünə çevrilsin.

***Kəmalə ATAKİŞİYEVA***
***AMEA Memarlıq və İncəsənət İnstitutu Musiqi folkloru şöbəsinin böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

# İlandağ daş salnaməsinin sirri açılır

**Maddi mədəniyyət baxımından İlandağ bütöv bir bina və ya qapalı "məbəd" kompleksi deyil, açıq səma altında yerləşən monumental bir sakral (müqəddəs) məkan və qurbanlıq ritual mərkəzi idi. Tanrı Haldinin rəsmi və əsas baş məbədi (dini paytaxtı) daha cənubda, Musaşir (Ardini) şəhərində yerləşirdi. Lakin Urartu və ondan əvvəlki Hurri tayfaları şimala doğru yayıldıqca, İlandağ unikal coğrafi və əzəmətli forması ilə Arazın şimalındakı ərazilər üçün regional baş müqəddəs mərkəzə (akaral zonaya) çevrilmişdi. İlandağ kitabəsinin mətnində birbaşa Tanrı Haldiyə öküz kəsilməsi və onun bu torpaqdakı zövcəsinə (ilahəsinə) inək qurban edilməsi əmr olunur. Bu fakt sübut edir ki, Hurri-Urartu mütəfəkkirləri bu dağı, sadəcə, bir qaya kimi görmür, onu tanrıların yer üzündəki təbii taxtı və ritual icra mərkəzi hesab edirdilər.**

## İlandağ kitabəsində Hurri-Urartu izi

Hurrilər qədim Yaxın Şərqdə, əsasən e.ə. III minillikdən başlayaraq e.ə. II minilliyə qədər yaşamış, Mesopotamiya, Anadolu və Şimali Suriyanın bəzi bölgələrində məskunlaşmışdılar.

Onlar regionda yaranan və inkişaf edən digər böyük sivilizasiyalar - Şumerlər, Akkadlılar, Hetər, Babillilər, Assurlular və Misirlilərlə sıx əlaqədə olmuşlar. Hurrilər qədim Yaxın Şərqdə regional siyasət, mədəniyyət və din baxımından mühüm yer tutmuş xalq idi. Onların yaratdıqları Mitanni krallığı dini panteonları və dil xüsusiyyətləri yalnız öz dövrlərində deyil, sonrakı mədəni inkişafa da təsir göstərmişdir. Hurrilər həm də qonşu sivilizasiyaların inkişafında əhəmiyyətli rol oynamışlar. Onların irsi, tarixşünaslıq və arxeologiya sahəsində araşdırmalar üçün hələ də aktual və maraqlı mövzudur.

Hurri dili eramızdan əvvəl III-II minilliklərdə Yaxın Şərqin geniş bir hissəsində - indiki Şərqi Anadolu, Şimali İraq, Şimali Suriya və Azərbaycanın (xüsusilə Naxçıvan və ətraf bölgələr) dağlıq ərazilərində danışılmış qədim bir dildir. Bu dil ən parlaq dövrünü e.ə. XV-XIV əsrlərdə, regional supergüc olan Mitanni dövlətinin rəsmi dili olduğu zaman yaşamışdır. Hurri dilini anlamaq üçün 3 əsas xüsusiyyətinə diqqət yetirmək lazımdır:

Aqqlütinativ (bitişdirici) strukturuna görə müasir türk dillərində olduğu kimi, Hurri dilində də sözün kökünə müxtəlif şəkilçilər artırılaraq yeni mənalar və bütöv cümlələr formalaşdırılırdı. Erqativ quruluşu bu dili "erqativ-mütləq" sintaktik sistemə sahib edir. Hurri dili nə Hind-Avropa, nə də Sami (Sami-Hami) dil ailələrinə aid deyil. O, dünyada tamamilə təcrid olunmuş Hurri-Urartu dil ailəsinə mənsubdur. Bəzi dilçilər, məsələn, İ.Dyakonov və S.Starostin bu ailəni Şimali Qafqaz dil qrupu ilə qohum hesab edirlər, lakin bu, tam sübut olunmamış fərziyyə olaraq qalır. Hurri və Urartu dilləri eyni dil ailəsinin iki əsas qoludur. Onların arasındakı münasibəti latın dili ilə italyan dili və ya qədim türkcə ilə müasir Azərbaycan dili arasındakı əlaqəyə bənzətmək olar. Naxçıvanın qədim toponimikası və arxeoloji materiallarında (məsələn, İlandağ kitabəsində keçən yer adlarında) həm Hurri elementlərinin qalıqlarını, həm də onların Urartu dilindəki son formalarını izləmək bu iki dilin keçid xəttini anlamaq üçün ən unikal imkanlardan biridir.

## Nuh peyğəmbər və Hurri mədəniyyəti

Nuh peyğəmbər mövzusu bizi Hurri mədəniyyətindən də qədimə - bəşəriyyətin yenidən doğulduğu Tufan dövrünə aparır. Burada maraqlı bir varislik zənciri var: Dünyanın ən qədim Tufan hekayəsi şumerlərin Bilqamıs dastanında keçir. Bu dastanı şumerlərdən mənimsəyən, onu öz dillərinə tərcümə edərək Anadolu və Qafqaza yayan, məhz hurrilər olmuşlar. Boğazköy arxivlərində dastanın Hurri dilindəki variantları da tapılıb. Yəni hurrilər Nuh tufanı xatirəsini yaşadan və qoruyan xalqlardan biridir. İnanclara görə, Nuh peyğəmbərin gəmisi suların çəkilməsi dövründə İlandağın zirvəsinə toxunaraq onu iki hissəyə bölmüşdür. Əgər bu teoloji yaddaşı əsas götürsək, İlandağ xalqların yaddaşında "bəşəriyyətin xilas olduğu və yer üzünə yenidən ayaq basdığı müqəddəs ilk quru parçası" idi. Tarixdə çox vaxt bir müqəddəs məkanın mahiyyəti dəyişmir, sadəcə zamanla oradakı tanrıların adları dəyişir. Çox güman ki, Nuh peyğəmbərin dövründən (tunc dövrünün əvvəllərindən) qalan və İlandağ ətrafında formalaşan qədim "xilas və tufan" inancı, sonradan əraziyə hakim olan Hurri-Urartu sivilizasiyası tərəfindən mənimsənilmişdir. Onlar bu dağın sakral enerjisini qəbul edərək, onu öz mərkəzi ilahları olan Tanrı Haldinin şərəfinə rəsmi dövlət ziyarətgahına və qurbanlıq mərkəzinə çevirmişlər.

Nuh peyğəmbərin Tufan hadisəsi ilə bağlı qədim xatirələr İlandağı regional yaddaşda müqəddəsləşdirmişdi. Sonradan bura gələn Hurri-Urartu elitası da bu ilahi coğrafiyanı öz imperiya dinlərinə uyğunlaşdıraraq, İlandağı Tanrı Haldinin şimal fəthlərini taclandıran rəsmi açıq səma məbədinə və qurbanlıq mərkəzinə çevirdi. Bu mənada, İlandağ həm Nuh peyğəmbər irsinin, həm də Hurri-Urartu kultunun Qafqazdakı ən böyük ortaq sakral mərkəzlərindən biri hesab oluna bilər.

(əvvəli qəzetin 24 iyul və 11 sentyabr tarixli saylarında)

## Tanrı Haldinin qurbanları

Professor Mirjo Salvini İlandağ və Meher qapısı kimi "Açıq səma altında yerləşən müqəddəs qapı" abidələrini və qurban rituallarını təhlil edərək bir neçə mühüm elmi nəticəyə gəlmişdir. Salvini qeyd edir ki, Urartu mətnlərində tanrılara ayrılan heyvan sayı tam bir iyerarxik cədvəldir. Məsələn, Meher qapısı mətnində Tanrı Haldiyə 6 öküz və 12 qoyun ayrıldığı halda, ikinci yerdə gələn Fırtına tanrısı Teişebaya 6 öküz, 12 qoyun, Günəş tanrısı Şiviniyə isə 4 öküz, 8 qoyun təyin edilib. Digər yerli və kiçik tanrılara isə sadəcə 1 qoyun kəsilirdi. Salvini bununla sübut edir ki, Urartuda kəsilən heyvanın miqdarı mənəvi rütbəni göstərirdi.

Salvininin mühüm kəşflərindən biri də odur ki, urartulular qurbanı, sadəcə, Tanrı Haldinin şəxsiyyətinə kəsmirdilər. Mətndə Haldinin atributları da bir ilahə kimi qəbul olunurdu. Məsələn, "Haldinin qüdrətinə", "Haldinin ordusuna", xüsusilə də "Haldinin nizəsinə" ayrıca qurbanların kəsilməsi əmr olunurdu. Salvini bunu imperiyanın hərbi xarakterinin dinə proyeksiya olunması kimi izah edir. Salvini İlandağ kitabəsini (CTU A 3-8) və Meher qapısını şərh edərkən göstərir ki, bu süni şəkildə düzəldilmiş qaya qapıları urartuluların inancında tanrıların yeraltı sferadan və ya dağın içindən yer üzünə, insanların dünyasına çıxış nöqtəsi idi. Məhz buna görə də krallar qurbanları qapalı məbədlərlə yanaşı, həm də İlandağ kimi sıldırım dağların döşündə kəsdirirdilər ki, tanrı dağdan çıxan kimi onun lütfünü qazansınlar.

Salvini vurğulayır ki, Urartu kralları işğal etdikləri ərazilərdəki (məsələn, Naxçıvan bölgəsindəki) yerli əhalini imperiyaya bağlamaq üçün, fəth edilən torpaqların müqəddəs dağlarında (İlandağ kimi) Tanrı Haldinin şərəfinə qurbanlar kəsdirir, eyni zamanda həmin ərazinin yerli ilahələrinə də (İlandağ mətnində keçən yerli ilahə kimi) hörmət əlaməti olaraq inək qurban edilməsini qanuniləşdirirdilər. Bu, Salvininin fikrincə, Urartunun tətbiq etdiyi uğurlu dini inteqrasiya siyasəti idi.

## İlandağ kitabəsinin nadirliyi

İlandağ kitabəsini Urartu imperiyasının digər yüzlərlə qaya və daş kitabələrindən fərqləndirən və onu dünya epifrafikasında unikal edən ən əsas əlamət - onun coğrafi mövqeyi, yazılma konteksti və mətndə yer alan yerli toponimlərin mərkəzi dövlət idarəçiliyinə daxil edilmə formasıdır.

Xüsusilə Mirjo Salvininin tədqiqatları və Urartu korpusunun müqayisəli analizi kontekstində, İlandağ kitabəsində olub, digər standart mətnlərdə (məsələn, Van və ya Göyçə gölü ətrafındakı yazılarda) rast gəlinməyən spesifik əlamətləri belə sıralaya bilərik:

"Sərhədüstü ilk imzalı birgə Fərman" olması - Urartu tarixində krallar hərbi yürüşlərini ,adətən, öz adlarından yazdırırdılar. İlandağ kitabəsi isə Urartunun dövlət kimi şimala - Araz çayından fəthlərə başladığı birgə idarəçilik dövrünün ilk rəsmi hərbi sənədidir. Kitabə tam olaraq yeni fəth edilən ərazinin faktiki sərhədində - sıldırım və uzaqdan görünən bir qalada həkk edilib.

Yerli İlahəyə ("Silaye") inək qurban edilməsi fenomeni - Urartunun digər bütün rəsmi din-dövlət mətnlərində qurbanlıqlar yalnız imperiyanın rəsmi panteonuna daxil olan tanrılara kəsilir. İlandağ kitabəsinin son sətrində isə mərkəzdən gələn Tanrı Haldi ilə yanaşı, yerli ilahəyə xüsusi olaraq inək kəsilməsi əmr olunur. Bu xüsusiyyət digər standart Urartu fəth kitabələrində yoxdur. Adətən, Urartu ordusu getdiyi yerdə yerli məbədləri dağıdır və ya tanrıları əsir aparırdı. İlandağda isə yerli əhalinin inancına və qədim Naxçıvan ilahəsinin adına rəsmi ritualın təyin edilməsi abidəni dini tolerantlıq və inteqrasiya baxımından unikal edir.

Naxçıvanın qədim coğrafiyasının ilk yazılı sənədi olması - mətndə keçən Arsini və Aniani şəhər-dövlətlərinin, həmçinin Puluadi ölkəsinin adları Urartu korpusunda ilk və yeganə olaraq məhz bu kitabədə bu şəkildə qeyd olunur. Bu adlar regionun (Naxçıvan və ətrafının) Tunc dövründən Dəmir dövrünə keçiddəki siyasi xəritəsini bəşər tarixinə yazılı olaraq həkk edən yeganə tapıntıdır.

